QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 162 (5393) 9 **sentyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev "Təhsil" Respublika İdman Mərkəzinin Zuğulba tədris idman bazasının açılışında iştirak edib



Səh 2

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Koreya Əmək Partiyasının Sədri, Koreya Xalq Demokratik Respublikasının Dövlət Şurasının Sədri, Koreya Xalq Ordusunun Ali Baş Komandanı Kim Çen Ina təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Zati-aliləri, Ölkənizin milli bayramı - Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm".

* * *

Azərbaycan Prezidenti Tacikistan Prezidenti Emoməli Rəhmona da təbrik məktubu göndərib: "Hörmətli Emoməli Şərifoviç, Tacikistan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm. Azərbaycan-Tacikistan dostluğu zəngin ənənələrə malikdir. İnanıram ki, bu ənənələri özündə yaşadan dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığımızın dərinləşməsi üçün daim möhkəm zəmin olacaqdır. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm".

* * *

Prezident İlham Əliyev Çin Xalq Respublikasının Taypey şəhərində keçirilən Tələbələrin XXIX Ümumdünya Yay Universiadasında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında Sərəncam imzalayıb.

## "Kaspi" Təhsil Şirkəti fəaliyyətini genişləndirir

Bax 6

Sentyabrın 8-də Beynəlxalq Mətbuat Mərkəzində "Kaspi" Təhsil Şirkətinin 2016/2017-ci tədris ilində fəaliyyətinin yekunlarına həsr edilmiş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə "Kaspi" Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri Sona Vəliyeva ümummilli lider Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, Ulu Öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini vurğulayıb. Müasir dünyada təhsilin mühüm rolunu, ölkəmizdə bu sahəyə xüsusi diqqət göstərildiyini qeyd edən S.Vəliyeva "Kaspi" Təhsil Şirkətinin ...

## Multikultural dövlət olan | Azərbaycan yəhudi icmasının ənənələrinə hörmətlə yanaşır

Bax 7

İşğalçı Ermənistan istisna olmaqla dünyanın bütün ölkələri ilə münasibətlərini suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq kimi beynəlxalq norma və prinsiplər əsasında quran Azərbaycan bu gün beynəlxalq birliyin hörmət və etimadını qazanıb. Bununla yanaşı, ölkədə son illər ərizində həyata keçirilən sosial, iqtisadi sahədə əldə edilən nailiyyətlər, əhalinin sosial rifahının və həyat şəraitinin...

## Azərbaycan ATƏT və onun bütün institutları ilə əməkdaşlığa önəm verir

Bax 9

Milli Məclisin sədr müavini, ATƏT Parlament Assambleyasında (PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova sentyabrın 8-də ATƏT PA-nın sədri Kristin Muttonenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Bahar Muradova Azərbaycanın ATƏT və onun bütün institutları ilə əməkdaşlığa böyük önəm verdiyini bildirib. "Hesab edirik ki, regionda baş verən proseslər bu əməkdaşlığın getdikcə daha da intensivləşməsini..."

9

### Ermənistanda media azadlığı sahəsində vəziyyət gərgindir



13

### 11 sentyabr terror aktından 16 il ötür



16

### Güləşçimiz Şahanə Nəzərova dünya çempionu olub



# Prezident İlham Əliyev "Təhsil" Respublika İdman Mərkəzinin Zuğulba tədris idman bazasının açılışında iştirak edib

*Sentyabrın 8-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində "Təhsil" Respublika İdman Mərkəzinin Zuğulba tədris idman bazasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Dövlətimizin başçısı Zuğulba tədris idman bazasının rəmzi açılışını bildirən lenti kəsdi. Təhsil naziri Mikayıl Cabbarov Prezident İlham Əliyevə yeni tədris müəssisəsi barədə məlumat verdi.*

Bildirildi ki, burada inşaat işlərinə 2015-ci ildə başlanılıb. Kompleksin tikintisi yüksək keyfiyyətlə və müasir səviyyədə aparılıb. İdman bazasının ümumi sahəsi 1 hektara yaxındır. Baza yataqxana və idman sağlamlıq korpusları, amfiteatr, həmçinin mini futbol və basketbol meydançalarından ibarətdir.

Dövlətimizin başçısı müəssisənin idman sağlamlıq korpusunda yaradılan şəraitlə tanış oldu.

Son illərdə Azərbaycanda yeni məktəb binalarının inşası, idman komplekslərinin tikintisi, mövcudlarının isə müasir səviyyəyə çatdırılması istiqamətində böyük işlər görülüb. Bunun nəticəsidir ki, ölkədə yeni məktəb binalarının, tədris idman komplekslərinin sayı sürətlə artıb.

Ardı Səh. 3







# Prezident İlham Əliyev "Təhsil" Respublika İdman Mərkəzinin Zuğulba tədris idman bazasının açılışında iştirak edib






Əvvəli-Səh-2

Dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə son illərdə bu istiqamətdə icra edilən layihələrin əsas məqsədi gənc nəslin daha savadlı və bilikli olması ilə yanaşı, həm də sağlam böyüməsidir. Bu cür komplekslər yeniyetmə və gənclərə idmanın müxtəlif növləri ilə məşğul olmağa hərtərəfli şərait yaradır.

Yeni istifadəyə verilən bu bazada əsasən yığma komandaların təlim məşq toplantılarının, idmanın müxtəlif növləri üzrə respublika və beynəlxalq səviyyəli yarışların keçirilməsi, aktual mövzularda seminarların təşkil edilməsi, idmanda fərqlənən məktəblilər üçün yay düşərgələrinin yaradılması, məktəblilərin asudə vaxtlarının səmərəli təşkili nəzərdə tutulur.

Prezident İlham Əliyev gələcəyimiz olan gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşıb, onların təhsil, sosial məsələlərinin həlli, asudə vaxtlarının səmərəli təşkili, həmçinin idmanla məşğul olmaları üçün çox mühüm işlər görüb. Belə komplekslərin istifadəyə verilməsi də bu istiqamətdə həyata keçirilən layihələrin tərkib hissəsidir. Bu baza gənclərin hərtərəfli inkişafı, onların fiziki cəhətdən sağlam olması kimi məsələlərdə vacib rol oynayır. Tədris idman bazası idmançılar üçün də geniş imkanlar açır.

Bu cür komplekslər Azərbaycanda idmanın kütləviliyinin təmin olunmasında, gənc nəsildə idmana olan marağın artırılmasında böyük əhəmiyyətə malikdir. Ölkədə digər sahələrdə olduğu kimi, təhsil və idman sferalarında da aparılan əsaslı islahatlar çərçivəsində belə komplekslərin istifadəyə verilməsi sübut edir ki, ölkəmizdə insan kapitalının inkişaf etdirilməsinə dövlət tərəfindən xüsusi diqqət yetirilir. Zuğulba tədris idman bazasında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.



# Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının sədrini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də ATƏT Parlament Assambleyasının sədri xanım Kristin Muttoneni qəbul edib.*

AZƏRTAC xəbər ki, ATƏT-in Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini deyən Kristin Muttonen qurumun Azərbaycandakı nümayəndəsinin bu əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəmədiyini vurğuladı, Azərbaycanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin də çox fəal işlədiyini, mühüm təşəbbüslər və qətnamələr irəli sürdüyünü qeyd etdi. ATƏT Parlament Assambleyasının sədri vəzifəsində Azərbaycana ilk dəfədir ki, səfər etdiyini deyən qonaq Prezident İlham Əliyevin təhsil müəssisələrinə göstərdiyi diqqətə toxunaraq məktəb və təhsillə bağlı məsələlərin ölkə üçün ən vacib məsələlər sırasında olduğunu qeyd etdi, ölkəmizdə bu istiqamətdə çox işlərin görülməsinin, o cümlədən yeni məktəblərin tikilməsinin önəmini vurğuladı.

Azərbaycanda son vaxtlarda irəli sürülən təşəbbüslər və həyata keçirilən layihələr barədə danışan Prezident İlham Əliyev bunun, eyni zamanda, beynəlxalq əməkdaşlığa da töhfə verdiyini qeyd etdi. Dövlətimizin başçısı ölkəmizin artıq multikulturalizm və mədəniyyətlərarası dialoq sahəsində bir mərkəzə çevrildiyini vurğulayaraq Azərbaycanda vaxtaşırı olaraq müxtəlif beynəlxalq təşkilatların iştirakı ilə böyük tədbirlərin keçirildiyini bildirdi.



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələyə toxunan Prezident İlham Əliyev Azərbaycanın bu münaqişənin sülh və danışıqlar yolu ilə ədalətli həlli istiqamətində səylərini əsirgəmədiyini, Ermənistan tərəfinin isə danışıqlar prosesinin uzadılmasında maraqlı olduğunu dedi.

Dövlətimizin başçısı təhsil məsələlərindən danışaraq bunun uşaqlar və gənclərin inkişafı üçün mühüm amil olduğunu dedi. Hər yeni dərs ili ərəfəsində Bakı şəhərində yeni tikilmiş və ya əsaslı təmir edilmiş məktəblərlə yaxından tanış olduğunu deyən Prezident İlham Əliyev Azərbaycanda təhsilin keyfiyyətinin də getdikcə artdığını, bu sahənin ölkəmizin prioritetləri sırasında yer aldığını vurğuladı, müstəqillik illəri ərzində respublikamızda əhalinin savadlılığını 100 faizə yaxın səviyyədə saxlamağa nail olduğumuzu məmnunluqla qeyd etdi. Azərbaycan Prezidenti ATƏT Parlament Assambleyasının sədri xanım Kristin Muttonenin ölkəmizə səfərinin uğurlu və səmərəli olacağına əminliyini ifadə etdi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlar prosesinin indiki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Aviasiya Akademiyasında “Təbii təhlükələr, fəlakət riskləri və dayanıqlı inkişaf” mövzusunda seminar keçirilib





Sentyabrın 8-də Milli Aviasiya Akademiyasında “Təbii təhlükələr, fəlakət riskləri və dayanıqlı inkişaf” mövzusunda elmi seminar keçirilib. AZƏRTAC xəbər verir ki, seminarı giriş sözü ilə açan Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev məruzəçi və müzakirə edilən məsələ haqqında seminar iştirakçılarına məlumat verib. Akademik məruzəçinin qazandığı mükafatlardan, elmi fəaliyyətindən bəhs edib və mövzunun əhəmiyyətini vurğulayıb.

Daha sonra mövzu barədə alim, Beynəlxalq Geodeziya və Geofizika İttifaqının baş katibi, Karlsrue Texnologiya İnstitutunun (Almaniya) professoru, Rusiya Elmlər Akademiyasının Zəlzələlərin Proqnozlaşdırılması Nəzəriyyəsi və Riyazi Geofizika İnstitutunun baş elmi işçisi, fizika-riyaziyyat elmləri doktoru Əli İsmayılzadə çıxış edib. Seminarda Milli Aviasiya Akademiyasının professor-müəllim heyəti ilə yanaşı, AMEA-nın prezidenti, akademik Akif Əlizadə, AMEA-nın institut direktorları, akademiklər, professorlar və tanınmış alimlər iştirak ediblər. Qeyd edək ki, Ə.İsmayılzadə bir çox beynəlxalq elmi layihələrin rəhbəri, Böyük Britaniyanın Astronomiya Cəmiyyətinin fəxri üzvüdür.

# Azərbaycan ilə ATƏT PA arasında əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olunub



Sentyabrın 8-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ATƏT Parlament Assambleyasının sədri xanım Kristin Muttonenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Milli Məclisin sədri bu səfərin münasibətlərin inkişafına müsbət təsir göstərəcəyini bildirib. Oqtay Əsədov Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən ATƏT PA ilə əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Milli Məclisin sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində danışıqların hazırkı vəziyyəti və perspektivlərindən danışıb. O, təəssüflə vurğulayıb ki, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesinin davam etməsinə baxmayaraq, münaqişə hələ də öz həllini tapmayıb. Danışıqlar prosesi sonsuz davam edə bilməz və bu məsələnin həllinin həvalə olunduğu Minsk qrupu daha qətiyyətli addımlar atmalıdır. Beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı müzakirələrdə bəzən ikili standartlara yol verildiyini, özlərini insan haqlarının müdafiəçisi hesab edən qurumların Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkünün taleyinə laqeyd münasibət bəslənildiyini vurğulayan Oqtay Əsədov deyib ki, işğalçı ölkə ilə əraziləri işğal edilmiş ölkə arasında bərabərlik işarəsinin qoyulması düzgün deyil. Azərbaycan gündən-günə inkişaf edir və bu da bəzi qüvvələri narahat edir. Onlar Azərbaycana qarşı böhtan kampaniyasına əl atır, təxribatlardan istifadə edirlər. Bütün bunlar erməni lobbisinin, dünyada yaşayan ermənilərin qərəzli hərəkətləridir. Oqtay Əsədov ATƏT PA-nın nümayəndə heyətinin üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Kristin Muttonen ATƏT PA-nın Azərbaycanla sıx əlaqələrindən məmnunluq ifadə edib. O, dünyada terrorizm dalğasının tüğyan etdiyi, təhlükəsizliyə daha çox ehtiyac duyulduğu bir dövrdə bu əlaqələrin əhəmiyyətini vurğulayıb.

# Şimal bölgəsində 29 sahibkara 226 min manat güzəştli kredit verilib

Sentyabrın 8-də Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən 29 sahibkara 226 min manat güzəştli kredit verilib. Kreditlər əsasən, heyvandarlıq, bağçılıq, mineral su istehsalı və sairə sahələrin inkişafına yönəldiləcək. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 40-a yaxın yeni iş yerinin açılmasına imkan yaradır. AZƏRTAC xəbər verir ki, sahibkarlara güzəştli kreditlər İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Qusar rayonunun Aşağı İmamqulu kəndində keçirilən işgüzar forum çərçivəsində təqdim olunub. Forumda Qusar rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan intensiv bağçılıq, kartofçuluq, cins heyvandarlıq və arıçılıq təsərrüfatlarının, meyvə emalı, qablaşdırma materialı istehsalı müəssisəsi və otelin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib. Bildirilib ki, kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin 100 faizədək hissəsi dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilir. Sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev Fondun fəaliyyəti və bu ilin ötən dövrü ərzində verilmiş güzəştli kreditlər hesabına həyata keçirilən layihələr barədə məlumat verib. Bildirilib ki, 2017-ci ilin ötən dövrü ərzində 1056 sahibkarlıq subyektinin ümumi dəyəri 267 milyon manat olan investisiya layihəsinin maliyyələşdirilməsinə 72,5 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması 3 mindən çox yeni iş yerinin açılmasına imkan yaradır.

Ümumilikdə, indiyədək Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2 min 400-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə 186,5 milyon manat güzəştli kredit (bugünkü tədbirdə verilən kreditlər də daxil olmaqla) verilib. İşgüzar forum çərçivəsində Qusarda güzəştli kredit ayrılmış intensiv bağçılıq təsərrüfatına baxış keçirilib. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən indiyədək 1300-dən çox sahibkarın bağçılıq təsərrüfatlarının yaradılması ilə bağlı investisiya layihəsinin maliyyələşdirilməsinə 73 milyon manat güzəştli kredit verilib.

# Ramiz Həsənov: “Azərbaycandakı standartların 40 faizi Avropa İttifaqının standartlarına uyğundur”

Azərbaycandakı standartların 40 faizi Avropa İttifaqının standartlarına uyğundur. AZƏRTAC xəbər verir ki, bu barədə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov jurnalistlərə müsahibəsində bildirib. Onun sözlərinə görə, mövcud standartlar artıq dəyişdirilib və beynəlxalq standartlara uyğunlaşdırılıb.

Respublikada benzinin keyfiyyətinə münasibət bildirən komitə sədri deyib ki, ölkəmizdə benzin “Avro-4”, “Avro-5”in tələblərinə uyğun istehsal olunur. R.Həsənov həmçinin əlavə edib ki, “Premium” markalı bu benzinlə köhnə avtomobillərə vurulduqda, bəzən problemlər yaranır. Ümumiyyətlə isə benzinin keyfiyyətində heç bir problem və ya narazılıq yoxdur.

# Naxçıvanda 2 meqavatlıq yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib







***Muxtar respublikanın energetika sektorunda davamlı inkişaf təmin edilib. Bu tədbirlər içərisində alternativ və bərpa olunan enerji mənbələrindən istifadə və bu sahədə müasir infrastrukturun yaradılması mühüm yer tutur. Hazırda muxtar respublikada günəş və su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 60 faizindən çoxunu təşkil edir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq sentyabrın 8-də muxtar respublikada 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat verib ki, 2016-cı il noyabrın 11-də İsveçrənin "Pure Energy Development" SARL Şirkəti ilə müqavilə bağlanılıb və Naxçıvan Günəş Elektrik Stansiyasının ikinci ərazisində 1,3 meqavat, beşinci ərazisində isə 0,7 meqavat gücündə 7 min 700 ədəd şüşə-şüşə tipli günəş panelləri quraşdırılıb. Tikinti işləri aparılarkən stansiya ərazisində müvafiq inventarlar, transformatorlar, kommutasiya aparatları, 2 transformator yarımstansiyası da quraşdırılıb və digər tədbirlər həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov enerji təminatının Naxçıvan Muxtar Respublikası üçün vacib sahələrdən biri olduğunu diqqətə çatdırıb, yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edib, stansiyanın qurulmasında əməyi olanlara təşəkkürünü bildirərək deyib: Enerji təhlükəsizliyinin təmin olunması, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə o ölkələrdə mümkün olur ki, həmin ölkələrdə sabitlik və inkişaf olsun. Bu gün ölkəmizdə bu tədbirlər uğurla həyata keçirilir. Naxçıvanda Günəş Elektrik Stansiyası qurularkən ərazi və şirkət düzgün seçilmişdir. Belə ki, Günəş Elektrik Stansiyasının yerləşdiyi ərazi əkinəyararsız torpaq sahəsidir. Şirkət isə günəş elektrik stansiyalarının qurulmasında ən müasir texnologiyaya əsaslanan şüşə-şüşə tipli panellərdən istifadə edir ki, bu da əraziyə qənaət olunmasına və stansiyanın yüksək iş əmsalı ilə fəaliyyət göstərməsinə imkan verir.

Ali Məclisin Sədri deyib: 2015-ci il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Günəş Elektrik Stansiyası bugünə qədər uğurla fəaliyyət göstərmişdir. Stansiyada 2016-cı ildə 30 milyon kilovat/saata, 2017-ci ilin ötən dövründə isə 22 milyon kilovat/saata yaxın elektrik enerjisi istehsal olunmuşdur. Yeni stansiyanın istifadəyə verilməsi ilə Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində istehsal ediləcək elektrik enerjisinin həcmi artırılaraq 33 milyon kilovat/saata çatdırılmışdır. Bu da muxtar respublikada elektrik enerjisinə olan tələbatın 8 faizinin Günəş Elektrik Stansiyası hesabına ödənilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri deyib: Günəş Elektrik Stansiyası Naxçıvan Muxtar Respublikasının sərvətidir. Eyni zamanda bu gün istifadəyə verilən 2 meqavatlıq Günəş Elektrik Stansiyası muxtar respublikanın həyatında əlamətdar hadisədir. Çünki harada enerji varsa, orada həyat var, iqtisadi inkişaf var. Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ucuz başa gəlir. Bu da muxtar respublikanın energetika sisteminə öz töhfəsini verəcək, Dövlət Energetika Xidmətinin gəlirləri artacaq, gələcəkdə yeni yarımstansiyalar qurulacaqdır. Ona görə də stansiya düzgün istismar olunmalı, tikililər, qurulanlar qorunub saxlanılmalıdır.

Ali Məclisin Sədri muxtar respublika əhalisini və energetikləri 2 meqavatlıq yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə bir daha təbrik edib. Sonra Ali Məclisin Sədri idarəetmə otağında stansiyanı işə salıb.

Günəş Elektrik Stansiyası ilə tanışlıq zamanı bildirilib ki, stansiyada istehsal olunan elektrik enerjisinin şəbəkəyə ötürülməsi və istehlakçılara itkisiz çatdırılması üçün bütün imkanlar yaradılıb. Panellərlə transformator yarımstansiyaları arasında kabel xətləri çəkilib, stansiya ərazisi çəpərlənib və digər təhlükəsizlik tədbirləri görülüb.

Ali Məclisin Sədri "Pure Energy Development" SARL Şirkətinin icraçı direktoru Mişel Kaleramiyə və şirkətin kollektivinə təşəkkür edib, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin bundan sonra davam etdiriləcəyini bildirib, energetika sahəsində kadr hazırlığı ilə bağlı müvafiq tapşırıqlar verib.

# “Kaspi” Təhsil Şirkəti fəaliyyətini genişləndirir




Sentyabrın 8-də Beynəlxalq Mətbuat Mərkəzində “Kaspi” Təhsil Şirkətinin 2016/2017-ci tədris ilində fəaliyyətinin yekunlarına həsr edilmiş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə “Kaspi” Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri Sona Vəliyeva ümummilli lider Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, Ulu Öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini vurğulayıb. Müasir dünyada təhsilin mühüm rolunu, ölkəmizdə bu sahəyə xüsusi diqqət göstərildiyini qeyd edən S.Vəliyeva “Kaspi” Təhsil Şirkətinin inkişaf mərhələləri və fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd olunub ki, şirkət 2007-ci ildə yaradılıb və keçən 10 il ərzində fəaliyyətini genişləndirərək 2 lisey, 4 uşaq bağçası, 11 filial, 7 yerli nümayəndəlik açıb.

2016/2017-ci tədris ilində şirkətin abituriyent hazırlıq kurslarını 324 nəfər bitirib. Onların 311-i builki qəbul imtahanlarında yüksək bal toplayaraq nüfuzlu ali məktəblərə qəbul olunub. “Kaspi” liseyinin isə 21 məzununun hamısı ali məktəblərə daxil olub. “Kaspi”nin məzunlarından bir nəfər - Vahab Cəbrayılov qəbul imtahanlarında maksimum nəticə - 700 bal toplayıb və o, “Kaspi” təqaüdünü qazanan ilk tələbə olub.

“Kaspi” Təhsil Şirkəti abituriyent hazırlıq kurslarını bitirən gənclərdən 31-i qəbul imtahanlarında 600-dən yuxarı, 60-ı isə 500-dən çox bal toplayıb. Xaricdə təhsil xidmətləri göstərən Kaspi Qlobal il ərzində 100-dən artıq şagirdi ABŞ-a və Böyük Britaniyaya yay məktəblərinə göndərib. Məktəbəqədər hazırlıq kursları olan Kaspi Kidslərdə isə 1000-dək uşaq məktəbəhazırlıq proqramını tam başa vurub. S.Vəliyeva bu il “Kaspi” Təhsil Şirkətinin fəaliyyətinin daha da genişləndiyini, Beynəlxalq məktəbəqədər kurikulum standartları əsasında fəaliyyət göstərən yeni ingilisdilli Kaspi Beynəlxalq Uşaq Bağçasının, həmçinin Bakı şəhərində Azərbaycan və rus bölmələrindən ibarət yeni bağçanın da açıldığını diqqətə çatdırıb.

“Kaspi” Təhsil Şirkətinin təsisçisi təhsildə uğurları artırmaq məqsədi ilə reallaşdırılacaq layihələrdən də bəhs edib.

Sonra “Kaspi” Təhsil Şirkətinin 10 illik fəaliyyəti ilə bağlı videoçarx nümayiş olunub. Tədbirdə çıxış edən müəllim və valideynlər də “Kaspi” Təhsil Şirkətinin səmərəli fəaliyyətindən, təhsilimizə verdiyi töhfələrdən danışıb, uğurlar arzulayıblar. Şirkətin liseyini və abituriyent hazırlıq kurslarını bitirən və qəbul imtahanlarında yüksək ballar toplayaraq ali təhsil müəssisələrinə qəbul olunan gənclərə hədiyyələr verilib, “Kaspi” təhsil mərkəzlərində təqdim olunan bütün xidmətlərdən 20 faiz endirimlə faydalanmaq üçün kuponlar təqdim olunub.




# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib

Bu gün Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib. Toplantını giriş sözü ilə açan MŞ sədrinin müavini, komissiya sədri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər ilə bağlı məlumat verib. Gündəlik səsə qoyularaq qəbul edilib. İclasda müzakirə edilən ilk məsələ “HGC Group” MMC-nin “Dövrün nəbzi” informasiya portalına (dovrunnebzi.com) qarşı şikayəti olub. Müzakirələr gedişində qərara alınıb ki, sözügedən saytla əlaqədar məsələ ətraflı araşdırılmaq üçün Şuranın “Reket jurnalistika”ya qarşı mübarizə Komissiyasının müzakirəsinə təqdim olunmalıdır. Barələrindəki narazılıqların “Reket jurnalistika”ya qarşı mübarizə Komissiyasında araşdırılmasının zəruriliyinə dair rəy çıxarılan daha iki sayt “Nia.az” və “Reallıq.info”dur. Sözügedən informasiya vasitələri ilə bağlı şikayətin müəllifi Neftçala Elektrik Şəbəkəsidir.

“Azərkontrakt” Səhmdar Cəmiyyətinin “Avtomobil nəqliyyəti” Təsərrüfatının “Təzadlar” qəzetinə qarşı şikayəti ilə bağlı çıxarılan rəy bundan ibarət olub ki, cavabdeh kütləvi informasiya vasitəsi təqdim etdiyi materialda dəqiqləşdirmə aparmalıdır. Qəzetin baş




redaktoru Asif Mərzili bu tələbin yerinə yetiriləcəyini vurğulayıb. Bununla da məsələ qapanmış hesab edilib.

İclasda müzakirə edilən növbəti məsələ vətəndaş Azər Xəlilovun “Azpolitika.info” saytında dərc edilmiş və digər informasiya portallarında da yer almış materialdan şikayəti olub. Bildirilib ki, narazılıq doğuran yazıda tənqid obyekti kimi seçilən şəxsin mövqeyinin öyrənilməməsi “Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları”nın pozulduğunu şərtləndirən vacib məqamdır. Cavabdeh KİV-in belə yanaşması həmin materialın müxtəlif rakusdan dəyərləndirilməsinə əsas verir. Bu baxımdan şikayətçinin sözügedən saytın onun şəxsi həyatına müdaxilə etdiyinə, vaxtilə qabardılmış və məhkəmə tərəfindən yanlışlığı isbatlanmış məsələləri yenidən gündəmə gətirməklə qərəzli davranmasına dair iddiaları anlaşılandır. Bütün bunlar nəzərə alınaraq “Azpolitika.info” saytına xəbərdarlıq olunub və gələcəkdə oxşar yanlışlıqlara yol verməmək tövsiyə edilib. İmişli rayonundan bir qrup vətəndaşın “Həqiqət və reallıq” qəzetinə, həmçinin vətəndaş Əliyev Elnurun Kazımov Teymur Mərdan oğluna və Əliyeva Səidə Əkrəm qızına qarşı şikayətləri isə hər iki məsələnin artıq məhkəmə müstəvisində araşdırıldığı nəzərə alınaraq gündəlikdən çıxarılıb.

# Multikultural dövlət olan Azərbaycan yəhudi icmasının ənənələrinə hörmətlə yanaşır

***İşğalçı Ermənistan istisna olmaqla dünyanın bütün ölkələri ilə münasibətlərini suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq kimi beynəlxalq norma və prinsiplər əsasında quran Azərbaycan bu gün beynəlxalq birliyin hörmət və etimadını qazanıb. Bununla yanaşı, ölkədə son illər ərizində həyata keçirilən sosial, iqtisadi sahədə əldə edilən nailiyyətlər, əhalinin sosial rifahının və həyat şəraitinin yüksəlməsi ölkəmizin real mənzərəsi ətrafında yüksək fikir formalaşdırıb. Bu mənzərə irqindən və dinindən asılı olmayaraq insanlarda böyük maraq doğurub. Dünyanın müxtəlif ölkələrində dərc olunan mətbu orqanlarında, internet potallarında, televiziyalarında bu maraq, isti münasibət özünün büruzə verir.***





Subscribe to our FREE Daily News Blast | ADD ME

THE JERUSALEM POST

Israel News | Opinion | Middle East | Diaspora | Israel-Innovation | American Politics | Not Just News | Premium | Christian News | Green Israel

NEWS FROM ARYE GUT

Why did Israel choose Azerbaijan?

In recent years, the State of Israel has pursued a multi-vector foreign policy. This policy brings considerable foreign policy dividends to Israel, especially during the voting in international organizations, and in terms of development of economic ties. Israel is a very close ally of the United States and maintains quite good relations with many other countries in American continents. Israel closely cooperates with both European and Asian countries. But there are several countries which have special strategic relations with Israel and the leader of the South Caucasus, Azerbaijan, is one of them.

Today it is a historical fact that no country in Eurasia has closer or warmer ties with Israel than Azerbaijan. The relationship between the two countries is particularly surprising because Azerbaijan is a majority Muslim country. Over the

Sponsored Articles

Israeli smart device firm leads to eco-boon for hotels

Conan floats in the Dead Sea, hangs out with women of the IDF

Dünyanın müxtəlif ölkələrinin qəzet və jurnallarında bir-birinin ardınca silsilə şəkildə dərc olunan materiallarda Azərbaycanın iyirmi birinci yüzilliyinin yüksəlişi diqqətə çəkilir. Azərbaycanın enerji təhlükəsizliyi sahəsində Avropanın regiondakı əsas tərəfdaşı olduğu, iqtisadi inkşafı, regionun lider ölkəsinə çevrilməsi, Azərbaycan müsəlman ölkəsi kimi xalqlar arasında mədəniyyətlərarası dialoqu tam dəstəkləməsi, Azərbaycanın ilk milli telekommunikasiya peykinin orbitə buraxılması, və s. məsələlər qeyd olunur.

Bu günlərdə daha bir məqalənin oxuculara təqdimi Azərbaycan gerçəkliklərinin dünya miqyasında təqdimində daha bir nümunədir. Bu, İsraildə çıxan nüfuzlu "The Jerusalem Post" qəzetində dərc olunan siyasi icmalçı Arye Qutun "İsrail öz seçimini nə üçün Azərbaycanın üzərində saxlayıb?" sərlövhəli məqaləsidir. Müəllif İsrail dövlətinin son illərdə çoxvektorlu xarici siyasət yürütdüyünü qeyd edərək, Tel-Əvivin həm Avropa ölkələri ilə, həm də Asiya ölkələri ilə sıx əməkdaşlıq etdiyini diqqətə çəkərək, ölkəsinin onlarla münasibətlərinin xüsusi strateji və müttəfiqlik xarakteri daşıdığını qeyd edib: "Bu gün artıq tarixi faktdır ki, Avrasiyada elə bir ölkə yoxdur ki, onun İsrail ilə strateji qarşılıqlı münasibətləri Azərbaycanın İsrail ilə münasibətlərindən daha sıx və daha dərin olsun".

Bu gün Azərbaycan bütün dünya birliyi üçün tolerantlıq və multikulturalizm nümunəsidir. Ölkəmizdə bütün xalqlar dinc yanaşı yaşayır və milli dəyərlərə hörmətlə yanaşılır. Qəzet yazır ki, Azərbaycan mənşəli israillilər harada yaşamalarından asılı olmayaraq, bu gün də Azərbaycanı sevməkdə davam edir, İsrail ilə Azərbaycan arasında geosiyasi, iqtisadi və humanitar əməkdaşlığın formalaşmasına kömək edirlər. "Əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycan, eyni zamanda, bir neçə başqa etnik və dini qrupların, o cümlədən, qədim zərdüştilərin, xristian və yəhudi icmalarının vətənidir, burada onlara da eyni dərəcədə səmimi və dostcasına münasibət bəsləyirlər", - yazan müəllif Azərbaycan Prezidenti İlham Əliyevin iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafında yəhudi icmasının rolunu dəfələrlə qeyd etdiyini vurğulayıb. Azərbaycan dövlətinin başçısının vurğuladığı kimi, Azərbaycan və yəhudi xalqları əsrlər boyu sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıb, ölkələrimiz arasında bu dostluq və qardaşlıq münasibətləri bu gün də davam edir.

Məqalədə vurğulanır ki, Azərbaycan Prezidenti İlham Əliyev dünyəvi dövlətə, multikulturalizmə və tolerantlığa tərəfdar olmasına, Azərbaycanda yaşayan bütün konfessiyalara və xalqlara hörmətlə yanaşmasına görə həm İsrail cəmiyyətinin, həm də dünyanın başqa dövlətlərindəki yəhudi icmasının əksər hissəsinin hörmətini qazanıb.

Məqalədə 2016-cı ilin dekabrında İsrail hökuməti başçısının Bakıya tarixi səfəri də qeyd olunub və bunun İsrail ilə Azərbaycan arasında strateji tərəfdaşlığa sübut olduğunu bildirib:"Baş nazir Binyamin Netanyahunun Cənubi Qafqaz regionuna ilk dəfə rəsmi səfərə getməsi bir daha göstərdi ki, iki ölkə arasında siyasi-diplomatik dialoq ən yüksək etimad səviyyəsindədir və bu əlaqələrin iqtisadi tərkib hissəsi və ticarət dövriyyəsi daim artır".

Azərbaycan haqqında geniş məqalə yazan müəllif İsraildəki erməni lobbisinin bir sıra nümayəndələrinin köməyi ilə bəzi İsrail KİV-lərinin bu yaxınlarda İsrail-Azərbaycan hərbi əməkdaşlığında "problemlər" barədə yalan informasiya yaymağa çalışdıqlarını da bildirib: "Bir il bundan əvvəl biz Ermənistanda anti-İsrail isteriyasının və açıq-aşkar antisemitizmin real şahidi olduq. Hətta İsraildəki erməni icması Azərbaycan-İsrail tərəfdaşlığına qarşı təhrikçi etiraz nümayişləri keçirmişdi. "Armenian Report" saytı antisemit və anti-İsrail mövqeləri açıq təbliğ edir, hətta İsrail dövlətini məhv etməyə çağırır".

Xocalı soyqırımına diqqət yetirən müəllif bu aktın iştirakçılarının və ideoloqlarının indiyə qədər cəzasız qalması və beynəlxalq məhkəmə qarşısında dayanmamasının ədalətsizlik və əxlaqsızlıq kimi qiymətləndirib: "Dünyada bu cür presedentlər, praktiki olaraq, yoxdur. Öz cinayətlərini gizlətməyə çalışan nasistlərdən fərqli olaraq, bəzi erməni ideoloqları, məsələn, Ermənistan dövlətinin indiki başçısı Serj Sarkisyan Azərbaycanın dinc vətəndaşlarına qarşı cinayətkar faşist hərəkətləri ilə çox fəxr edir". Ermənistanda yəhudilər üzərindəki mədəni zorakılığa da diqqət ayıran müəllif bu zorakılığın antisemit məzmunlu kitabların nəşr olunmasında, televiziyada antisemit ruhlu verilişlərin yayımlanmasında, habelə, Yerevanda Holokost qurbanları memorialının dəfələrlə murdarlanmasında özünü göstərdiyini bildirib.

Siyasi icmalçının qənaətinə görə, İsrail Cənubi Qafqazın lideri Azərbaycanla dostluq münasibətlərini həmişə yüksək qiymətləndirməli və inkişaf etdirməli, Azərbaycanın İsraildən uzaqlaşdırılmasına yol verməmək üçün hər hansı qüvvələrin bu münasibətlərə ziyan vurmasına imkan verməməlidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Azərbaycan Rohingya müsəlmanlarına yardım göndərir




Myanmada Rohingya müsəlmanlarına qarşı davam edən kütləvi zorakılıq zəminində əziyyət çəkən insanlara kömək göstərmək məqsədilə Prezident İlham Əliyevin göstərişinə əsasən Azərbaycan hökuməti tərəfindən humanitar yardım göndərilir. Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, humanitar yardım "SilkWay" aviaşirkəti vasitəsilə Rohingya müsəlmanlarının müvəqqəti sığınacaq tapdığı Banqladeşə göndərilir. Humanitar yardıma gündəlik tələbat malları və ərzaq məhsulları daxildir.

## ATƏT PA-nın növbəti sessiyalarında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparılacaq

ATƏT Parlament Assambleyasının (PA) növbəti sessiyalarında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı müzakirələr aparılacaq. Bunu ATƏT Parlament Assambleyasının sədri xanım Kristin Muttonen deyib. O qeyd edib: "Bildiyiniz kimi, ATƏT PA-da təmsil olunan parlamentarilər iclaslarda öz ölkələrinə aid məsələləri müzakirəyə çıxarırlar. Bu baxımdan əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinin növbəti sessiyalarda müzakirəyə çıxarılmasını gözləyirik".

K.Muttonen bildirib ki, ATƏT PA bütün məsələlərin, xüsusən də ATƏT regionunda mövcud olan münaqişələrin həlli yolları üçün bir platformadır. O əlavə edib ki, ATƏT PA-nın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Vigenin regionda sülhün bərqərar olması üçün aktiv işlər aparır: "Biz azərbaycanlı tərəfdaşlarımızla da regionda sülh və sabitliyin bərqərar olması, insanların rifahının təmin olunması üçün fəal iş aparırıq". K.Muttonen cəbhəyanı bölgələrə səfər etməyəcəyini bildirib: "Budəfəki səfərim çərçivəsində cəbhəyanı bölgələrə səfər gözlənilmir".



## “KVADRAT-BAŞ”

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

İnsan elə bir canlı varlıqdır ki, bəzən özündə olmayanda, əsəbinə hakim kəslə bilməyəndə, yaxud düşüncə tərzində problemlər yarandığı zaman, milli leksokonuna aid olan, ya da olmayan müxtəlif ifadələri sərt, yaxud da yumşaq tərzdə ifadə etməyə məcbur olar. Bu, insanın daxilindəki xəbisliyin təzahürüdür. Misal üçün, kimsə xoşuma gəlməyən bir hərəkətə rəvac veribsə, mən ona qarşı “kvadratbaş”, “yemişbaş”, “vedrəbaş”, “çömçəbaş” ya da ki, saysız-hesabsız nə isə “baş” kəlməsini işlədə bilərəm. Fəqət, işlətməyə də bilərəm, ən azından səbirli davranb daha böyük fəsadların yaranmaması üçün dlimə sahib duraram. Düzdür, bunun özü də indiki zamanda çox çətin bir məsələdir, bacaranı isə bacarır, hər halda. Burada başqa bir əmma da var. Əmması ondadır ki, münasibətim olmayan, mənə istisi-soyuğu dəyməyən bir şəxsə qarşı sərt, ya da qeyri-tərzdə ifadə işlədim. O şəxs də olsun bütün dünyanın tanıdığı, hörmət bəslədiyi və vəfat etmiş elm xadimi...

Başqa tərəfdən, heç tanınmış insan olmasın, bir insanın digər insanı təhqir etməsi müsbət qarşılanacaq məsələ deyil. Təəssüf ki, bizlər bir sıra hallarda belə hadisələrin şahidlərinə çevrilirik. Hətta sözügedən münasibətlərin elə insanlar tərəfindən bəslənməsini görürük ki, yatsaq heç yuxumuza da girməz.

Bir neçə gündür ki, dünya miqyasında tanınmış alimimiz Lütfi Zadə Allahın dərgahına qovuşub və Azərbaycanın adını dünyaca məşhur edən şəxsiyyətlərdən biri kimi, Vətənini sevən şəxsiyyət kimi nəşinin doğma torpaqda dəfn edilməsini vəsiyyət edib. Əbəs yerə deyil ki, onun dəfn komissiyasının təşkili və fəaliyyəti ilə bağlı dövlətin ən ali məqamından tapşırıq verilib. Bunun özü Lütfi Zadəyə olan rəsmi hörmət və ehtiramın göstəricisi kimi qiymətləndirilə bilər.

Dövlət strukturunda vəzifə kürsüsü tutan Akif Əlinin mərhum alimimizlə bağlı jurnalistin ünvanladığı suala kobud şəkildə cavab verməsi, üstəlik, onun tərəfindən alimimizə qarşı yaraşmayan məlum bənzətməsini etməsi isə, əslində, əndazəni aşmaqdan başqa bir şey deyil. Düzdür, A.Əli Lütfi Zadəyə qarşı işlətdiyi kobud ifadəsinə görə xalqdan üzr istədi və bu, təqdirəlayiq bir haldır, amma nə olsun ki, o, bir növ daxilində olan “mədəniyyətini” bir neçə dəqiqədə ictimailəşdirdi. Daha dəqiqi, mətbuat onun ifadəsini xalqın nəzərinə çatdırmış oldu. Bir daha diqqət edək, dövlət ən yüksək səviyyədə dəyərli alimimizin dəfninə hazırlıq işləri aparır, dövlət strukturunda işləyən bir şəxs isə dəyərli alimimiz barədə ağlına gələn ifadəni səsləndirir. Sonra da deyir ki, mənim bundan - Lütfi Zadənin vəfatından, dövlətin dəfn komissiyası yaratmasından xəbərim yoxdur (?!-R.). Üstəlik, çox yəqin ki, gen-bol, allı-güllü, kefli-əyləncəli yay tətilindən yenicə qayıdan Akif Əli səhər-səhər bənzər xəbərlər barədə danışmağı sevmədiyini (?!-R), ümumiyyətlə isə, alimimizi tanımadığını deməklə, ona həqarət etməklə özünü ifşa etmiş oldu.

İndi isə üzrxahlığa gələk. Xalqın, ictimai rəyin haqlı narazılığından sonra bu adam qayıdıb deyir ki, hər zaman qarşılıqlı anlaşma şəraitində işlədiyi saytın müxbiri ilə bir-birilərini düz başa düşməyiblərmiş...Aman Allah, insanları bu qədərmi sadəlövh sayır, A.Əli?!

Yaxud deyir ki, o, həqiqətən də, alimin dəfni ilə bağlı təfərrüatlara malik deyilmiş (?!). Onda adamdan soruşmaq gərək ki, əcəba, dövlət strukturunda oturaotura dövlətin ən ali səviyyədə planlaşdırdığı, hətta xalqın belə məlumatlı olduğu qərardan niyə xəbərin olmasın ki? Sonda isə üç kəlməlik üzrxahlığında “Tanrı xalqın böyük aliminin ruhunu şad etsin!” deyir. Yaxşı, əgər Lütfi Zadənin böyük alim olduğunu bilirdinsə, niyə ona yaraşmayan, heç özünə də yaraşmayan ifadəni işlədirdin..?

ALLAH BÖYÜK ALİMİMİZƏ RƏHMƏT ELƏSİN!

# Bakı görüşünün əhəmiyyətli məqamları

*Rusiyalı polkovnik: “Belə görüşlərin Azərbaycan paytaxtında keçirilməsi, belə qənaətə gəlməyə əsas verir ki, Bakı hərbi sahədə Rusiya-ABŞ və Rusiya-NATO münasibətlərinin yaxşılaşdırılması paytaxtına çevrilir”*

***Məlum olduğu kimi, Bakı dünyanın hərbi-siyasi, iqtisadi-mədəni arenasında mərkəz və təşəbbüskar rolunda çıxış etməklə, bir daha beynəlxalq aləmdəki yüksək yerini və danılmaz rolunu təsdiq etmiş oldu. Belə ki, bu dəfə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və NATO hərbi komitəsinin rəhbərinin Azərbaycanın paytaxtını danışıqların aparılması istiqamətində mərkəz olaraq seçmələri ölkəmizin əhəmiyyətli məqamlarını ehtiva etmiş oldu. Əbəs yerə deyil ki, istər Qərb, istərsə də Rusiya mətbuatı bu görüşə geniş yer verərək, rəsmi Bakını sülh təşəbbüskarı olaraq qiymətləndirdi.***



### “Komsomolskaya Pravda”: “Rusiya və ABŞ Yaxın Şərqdəki oyunun qaydalarını Bakıda müəyyən edir”

Digər tərəfdən, Qərbin maraqlarını təmsil edən Şimal Alyansı ilə rəsmi Moskvanın strateji baxışlarındakı bir sıra mövqelərin üst-üstə düşməsi yönündə Bakının səylərinin müsbət nəticə verdiyini də vurğulamaq mümkündür. Hər iki hərbi-siyasi dairənin ölkə Prezidenti İlham Əliyevlə görüş keçirmələri və həmin görüşlərdə irəli sürülən yüksək fikirlər də, belə deməyə zəmin yaradır ki, artıq Bakı, bənzər görüşlərdə vasitəçi, yaxud təşəbbüskar rolunu oynamaqla bunu bir ənənəyə çevirib. Yeri gəlmişkən, həmin görüş barəsində Rusiyanın aparıcı media qurumlarından olan “Komsomolskaya Pravda” qəzeti də ekspert və politoloq rəylərinə yer ayırıb. Belə ki, bu xüsusda rəy bildirən rusiyalı hərbi-ekspert, istefada olan polkovnik Viktor Baranets həmin görüş ərəfəsində deyib ki, Rusiya-ABŞ, Rusiya-NATO münasibətləri dondurulmuş vəziyyətdə olmasına rğəmən, Bakı görüşünün baş tutması münasibətlərə yenilik gətirəcək. SİTAT: “Bura təkcə diplomatik və siyasi deyil, həm də hərbi münasibətlər daxildir. Bu münasibətlər, faktiki olaraq, sovetlər dövründəkindən, soyuq müharibə vaxtındakından da pis vəziyyətdədir. Ona görə də, Gerasimov və Pavelin Bakı görüşü, bu baxımdan, strateji məqsəd daşıyır”.

Görüş haqqında fikirlərini davam etdirən rusiyalı polkovnikə görə, Rusiya-NATO münasibətləri, Şərqi Avropada NATO-nun hava hücumundan müdafiə sistemi yerləşdirməsi, Şimali Koreyanın nüvə problemi, ABŞ-ın Cənubi Koreyada hava hücumundan müdafiə sistemi yerləşdirməsi, Suriya münaqişəsi, Ukrayna böhranı, Rusiya-NATO, hərbi sahədə Rusiya-ABŞ əməkdaşlığı məsələlərinin müzakirəsi gələcəkdə görüşlərin intensiv xarakter alacağından xəbər verir.

Bu baxımdan, V.Baranets son vaxtlar Rusiya və ABŞ, Rusiya və NATO generallarının görüşlərinin, məhz Bakıda keçirilməsi məsələsinə toxunub. O, bu ilin fevralında Bakıda Rusiya və ABŞ baş qərargah rəislərinin görüşünün keçirildiyini xatırladıb: “Belə görüşlərin Azərbaycan paytaxtında keçilməsi, belə qənaətə gəlməyə əsas verir ki, Bakı hərbi sahədə Rusiya-ABŞ və Rusiya-NATO münasibətlərinin yaxşılaşdırılması paytaxtına çevrilir. Bu, birinci məqamdır. İkinci məqam isə, Bakının dünya miqyasında strateji mövqedə yerləşməsidir. Bu regionda həm Rusiyanın, həm də ABŞ-ın strateji maraqları var. Təbii olaraq, bu strateji regionda - nəzərə alsaq ki, Suriya Bakıya çox da uzaq deyil - Rusiya və ABŞ Yaxın Şərqdəki oyunun qaydalarını müəyyən etməlidir. Ona görə ki, biz dəfələrlə Suriyada ABŞ-ın rəhbərlik etdiyi koalisiyanın və Suriya hökumət qüvvələrini dəstəkləyən Rusiya Hərbi-Kosmik Qüvvələrinin necə fəaliyyət göstərdiklərini demişik. Biz dəfələrlə ABŞ-ın rəhbərlik etdiyi koalisiyanın terrorçulara qarşı Suriyada vahid cəbhədə mübarizə aparmasını təklif etmişik. Lakin heç bir cavab almamışıq. İndi isə Suriyada terrora qarşı mübarizədə mühüm mərhələ yaşanır. “İŞİD”-in ikinci paytaxtı hesab edilən Deyr-Ez-Zor bölgəsində həlledici döyüşlər gedir. Suriya ordusu Rusiyanın köməyi ilə artıq şəhərin mühasirəsini yarıb. Bildiyiniz kimi, ABŞ-ın rəhbərlik etdiyi koalisiya İraqda “İŞİD”-ə qarşı mübarizə aparır. Ordan qaçan terrorçular isə Suriyaya axın edirlər. ABŞ-ın bu fəaliyyəti İraqdakı terrorçuların Suriyada cəmləşmələrinə səbəb olur. Ona görə də, bu məsələdə razılığa gəlmək lazımdır. Elə etmək lazımdır ki, terrorçulara qarşı mübarizədə Suriya ordusuna, Rusiyaya və ABŞ-ın rəhbərlik etdiyi koalisiyaya ziyan dəyməsin”.

Görünən isə budur ki, Bakı görüşü Azərbaycanın regiondakı yerini və rolunu daha da möhkəmləndirməklə yanaşı, yaxın perspektivdə beynəlxalq aləmdəki hərbi-siyasi cəhətdən də aparıcı mövqeyə sahib olacağı ehtimallarını doğruldur. Əks-təqdirdə, Bakı bənzər görüşlərin mərkəzi statusunu qazana bilməzdi.

**Rövşən NURƏDDİNOĞLU**

# AZALJET aşağıbüdcəli brendi ləğv olunur

“Buta Airways” aşağıbüdcəli aviaşirkətin işə salınması ilə əlaqədar olaraq 2017-ci il oktyabrın sonundan etibarən Azərbaycan Hava Yollarının (AZAL) tariflərində bir sıra dəyişikliklər olacaq. Bu barədə AZƏRTAC-a “Azərbaycan Hava Yolları” QSC-dən bildirilib. AZALJET aşağıbüdcəli brendi tamamilə ləğv olunur və baqajın daşınmasını nəzərdə tutmayan xüsusi endirimli tariflər də daxil olmaqla yeni tariflər tətbiq ediləcək. Digər tariflər də barədə oktyabrın sonuna yaxın elan ediləcək. Qeyd edək ki, AZAL-ın bütün yeni tariflərinə əl yükü (10 kiloqram) və təyyarə göyərtəsində tam çeşidli qidalanma (seçimə uyğun isti yemək, desertlər, salatlar, soyuq və isti içkilərin bütün növləri) daxil olacaq.



# Azərbaycan ATƏT və onun bütün institutları ilə əməkdaşlığa önəm verir



Milli Məclisin sədr müavini, ATƏT Parlament Assambleyasında (PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova sentyabrın 8-də ATƏT PA-nın sədri Kristin Muttonenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Bahar Muradova Azərbaycanın ATƏT və onun bütün institutları ilə əməkdaşlığa böyük önəm verdiyini bildirib. "Hesab edirik ki, regionda baş verən proseslər bu əməkdaşlığın getdikcə daha da intensivləşməsini tələb edir. Sizin ölkəmizə ilk səfəriniz ATƏT-Azərbaycan münasibətlərinə, eləcə də regionda gedən proseslərə verdiyiniz önəmin göstəricisidir", - deyə Bahar Muradova qeyd edib. ATƏT PA-nın sədri Kristin Muttonen Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. O deyib ki, Azərbaycan ATƏT üçün çox önəmli bir ölkədir. Müəyyən mövzular var ki, Azərbaycanın təcrübəsindən yararlanmaq istəyirik. Məsələn, multikulturalizm dünyada Azərbaycan haqqında olduqca xoş təəssüratlar yaradır. Görüşdə əməkdaşlığın indiki vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Ermənistanda media azadlığı sahəsində vəziyyət gərgindir



Ermənistanda media azadlığı sahəsində vəziyyət gərgindir. İşğalçı ölkədə jurnalistlər təqib olunur, mətbu orqanlar müxtəlif bəhanələrlə bağlanılır. AZƏRTAC xəbər verir ki, parlamentin qəbul etdiyi yeni qanun isə jurnalistlərin fəaliyyətini bir qədər də məhdudlaşdıracaq. Bundan sonra Ermənistanda jurnalistlər parlamentin iclaslarında iştirak edə bilməyəcəklər. Bu barədə Ermənistan parlamentində dövlət məsələləri və insan haqlarının müdafiəsi komissiyasının sədri Qrayr Tovmasyan məlumat verib. O qeyd edib ki, müzakirələr zamanı zalda jurnalistlərin olması deputatların işinə maneə yaradır. Bu səbəbdən də media təmsilçilərinin parlamentin iclaslarına buraxılmaması qərara alınıb.

Bununla bağlı yeni qanun da qəbul olunub. Qanuna əsasən, jurnalistlər dövlət qurumlarının icazəsi olmadan heç bir yerdə çəkiliş apara bilməzlər. Yalnız iki deputat, Levon Zurabyan və Nikol Poşinyan qəbul olunan yeni qanunun əleyhinə çıxıb. Onlar bildiriblər ki, onsuz da ölkədə media azadlığı yoxdur. Bunu beynəlxalq qurumlar da təsdiqləyirlər.

Sərhədsiz Reportyorlar Birliyinin 180 ölkə arasında apardığı monitorinqə əsasən, Ermənistan KİV nümayəndələrinə qarşı təzyiqlərə görə ilk sıralardadır. Parlamentin qəbul etdiyi yeni qanun isə jurnalistlərin fəaliyyətini bir qədər də məhdudlaşdırır.

Söz azadlığı komitəsinin sədri Aşot Melikyan deyib ki, Ermənistanda jurnalistlər addımbaşı qadağalar və təzyiqlərlə üzləşirlər. Onlar tez-tez döyülürlər. Əgər hakimiyyət media üzərində təzyiqlərinə davam edəcəksə vəziyyət daha pis olacaq. İndi ölkə mətbuatı heç vaxt olmadığı qədər təhlükə altındadır. Bir il ərzində işğalçı ölkədə jurnalistlərə qarşı səksənə yaxın zorakılıq halı qeydə alınıb. Hökumət media təmsilçilərinin mitinqləri işıqlandırması haqqında beynəlxalq səviyyədə öhdəlik götürsə də bunun əksi müşahidə olunur. İrəvanda baş verən etiraz aksiyalarında ən çox döyülən və avadanlıqları sındırılan da məhz jurnalistlər olur. Jurnalistlərin hüquqlarının addımbaşı pozulduğu Ermənistanda internetə də məhdudiyyətlər var. İnternet üzərindən fəaliyyət göstərən TV-ləri izləmək getdikcə çətinləşir. Ötən il "İlur" internet televiziyası və Qraparaq qəzetinin əməkdaşlarına həbs qoyulub. Seçki prosesləri zamanı da jurnalistlərə normal fəaliyyət üçün heç bir şərait yaradılmır. Seçki məntəqələrində hücumlara məruz qalan media təmsilçilərinin şikayətlərinə isə baxılmır.

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Tovuzda vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, sentyabrın 8-də nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Tovuz rayonunda bölgə vətəndaşlarını qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbuldan əvvəl nazir Ramin Quluzadə və Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda R.Quluzadə Tovuz, Şəmkir, Gədəbəy, Qazax və Ağstafa rayonlarının sakinlərinin müraciətlərini dinləyib. Vətəndaşlar əsasən telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul və digər məsələlərlə bağlı müraciət ediblər. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlərə dair müraciətlər isə aidiyyəti qurumlara çatdırılması üçün qeydiyyata alınıb. Regional səfər çərçivəsində nazir aidiyyəti rayonların Telekommunikasiya qovşaqları, poçt filialları, eləcə də, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin regional bölmələrinin və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirib. Sektor üzrə mövcud durum, çatışmazlıqlar, nöqsanlar, vətəndaş şikayətləri üzrə geniş müzakirələrin aparıldığı müşavirədə həyata keçirilən islahatların vətəndaş məmnunluğu və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəldiyi diqqətə çatdırılıb. Toplantıda R.Quluzadə müvafiq sahə rəhbərlərinə hər bir vətəndaş müraciətinə fərdi və həssaslıqla yanaşılması barədə tapşırıqlar verib.





# Bəlkə, onu da "adam" yerinə qoydular

RƏFİQƏ

***Azərbaycan müxalifəti siyasi arenaya çıxdığı gündən bu yana heç vaxt ortaq mövqeyə gəlmək və birgə mübarizə aparmaq iradəsini ortaya qoya bilməyib. Ən azı bugünkü durum, məhz belə düşünməyə əsas verir. Odur ki, hazırkı məqamda müxalif siyasi qüvvələr bir-birilə anlaşa bilmir, hətta ayrı-ayrılıqda hər biri özünü müxalifətin "anası", "atası" və yaxud da "güclü lideri" hesab edir. Ancaq bu əbləhlər anlamırlar ki, Azərbaycan adlı məmləkətdə bir müxalifət donunu əyninə geyinmiş Əli Kərimlidir. Çünki satqın və Vətən xaini tituluna sadiq qalan Ə.Kərimlinin əməlləri ilə dövlətimizə və dövlətçiliyimizə vurduqları zərbələr hələ də davam etməkdədir.***

Ermənilərin Azərbaycandakı himayədarı, emissarı, kəşfiyyatçısı, "şpionu" olan Arif və Leyla Yunusların dövlətçiliyimiz əleyhinə apardığı işlər bu gün də davam edir. Elə buna görə də, Ə.Kərimli hər zaman işverən, dövlətə xəyanət edən və dövlət əleyhinə olan qrupun başında dayanan Leyla və Arif Yunusları müdafiə edib. Həbsdə olduğu müddətdə Leyla və Arif Yunuslara zəhər daşıyan ünsürlərə göstəriş də verib ki, "Azadlıq"da ictimaiyyətə bu iki neoerməni ünsürün guya günahsız olduğunu sübut edən yazılar yazsınlar, onların günahsız olduğunu sübuta yetirməyə cəhd göstərsinlər. Necə deyərlər, bu ünsürlərin hərəkəti lap dəvəquşunun başını soxmasına bənzəyir.

Bütün bunlar öz yerində. Ancaq gəlin onları müdafiə edən satqın titulunun sahibi Ə.Kərimlini daha necə tanımağımıza, faktlar birdir, ikidir, üçdür... Ə.Kərimli satqın, xəyanətkar, cinayətkar olmaqla yanaşı, həm də vaxtilə Demokratiyanın İnkişaf Fondunun pullarını AXCP-nin keçmiş sədri Əlülfəz Elçibəyin əleyhinə işlətmiş bir oğrudur. Bax, bu gün artıq heç kim soruşmur ki, "kimdir Ə.Kərimli?" Çünki hamı yaxşı bilir ki, Ə.Kərimli dəhşət və qorxuya bələnmiş Azərbaycanın siyasi arenasında çürük və ləkəli mənəviyyatı olan ünsürdür. Anlamır ki, ləkəli mənəviyyatı olan, bu cinayətkar, satqın ünsür heç vaxt xalq tərəfindən qəbul edilmir və bundan sonra da edilməyəcək. Bilən bilir ki, Ə.Kərimli, nəinki dövlətçilik əleyhinə çalışıb, həm də Xalq Cəbhəsi taleyində dağıdıcı rolu ilə ləkəli və rüsvayçı bir iz qoymuş ünsürdür. Bir də mavi rəngə vurğun olan Ə.Kərimli bir vaxtlar rəngli inqilabçı idi, indi isə qocalmış köhnə və boz çaqqaldır ki, ancaq ulamaqdan başqa heç nəyə gərək tullantıdır.

Ə.Kərimli həm də Əbülfəz Elçibəydən istifadə edərək, sevimli komsomolçusu olmuşdur. Bu, o Ə.Kərimli idi ki, sonralar öz ustadına kəm baxdı, ona xəyanət etdi və ən nəhayət, zəhərləyib o dünyaya göndərdi. Beləcə rəhmətlik Elçibəy də Ə.Kərimlinin əsl xislətindən xəbərsiz dünyadan getdi.

Bu gün "Cəbhə"nin siyasi çətinliklərlə üzləşməsinin əsasını, məhz Ə.Kərimli qoymuşdu. Bir çox "cəbhəçilər" maddi çətinliklərə məruz qalsalar da, Ə.Kərimli daim firavanlıq içində yaşamış, hətta öz siyasi liderinə belə meydan oxumaqdan çəkinməmişdi. Onun seçkilərdən-seçkilərə birləşib-ayrıldığı Lalə Şövkətə, İsa Qəmbərə də siyasi badalaqları az olmamışdı.

Görünür, bu səbəbdən də, bu gün Qərbdəki qardaşlarının da ona inamı qalmayıb. Onlar yaxşı bilirlər ki, Ə.Kərimli yalançı, xəyanətkardır və Qərbin bundan xoşu-zadı gəlmir. Ona görə də, Ə.Kərimli seçkiər ərəfəsi Qərbdəki qardaşlara yenidən xoş görünmək üçün, indi də düşüb Leyla və Arif Yunusların dalınca. Fikirləşir ki, bəlkə onu da "adam" yerinə qodular.

# Rusiya-Türkiyə strateji tərəfdaşlığı: İzmir sərgisindən sonra gəlinən qənaətlər

***Tarixən Türkiyə ilə Rusiya arasındakı münasibətlər geniş geosiyasi məkana ciddi təsir edib. Əsrlərlə Avrasiyanın iki böyük imperiyası bir-birinə düşmən siyasət yeridiblər. Təcrübə göstərir ki, belə gedişat, əslində, həm Türkiyəyə, həm də Rusiyaya ziyandır. Son illər iki böyük dövlət daha çox əməkdaşlığa meyl edirlər. Bu ilin avqustunda İzmirdə beynəlxalq sərgi-yarmarkanın keçirilməsi zamanı iki ölkə arasında əməkdaşlığı daha da genişləndirmək barədə razılığın əldə edilməsi yeni ümidlər yaradıb. Analitik və ekspertlər Rusiya-Türkiyə yaxınlaşmasının faydalılığını əsaslandırmaq üçün müxtəlif arqumentlər gətirirlər. Biz onların bəziləri üzərində geniş dayanaraq, iki ölkə arasındakı əlaqələrin inkişafının doğrudan da, geniş geosiyasi məkanda müsbət nəticələr verəcəyini vurğulamaq istərdik.***

## İzmir yarmarkası: rus-türk dostluğunda yeni səhifəyə doğru

Türkiyənin İzmir şəhərində "Izmir International Fair" adı ilə məşhur olan beynəlxalq yarmarka-sərgi avqustun 18-də işinə başlayıb. Bu, həmin ad altında keçirilən 86-cı tədbirdir. Onun əsas mövzusu "İnnovasiya və energetika"dır. Sərgi-yarmarka avqustun 27-ə qədər davam edib. Bu tədbirin əsası 1927-ci ildə qoyulub. Müəyyən fasilələrə baxmayaraq, indiyə qədər keçirilir. Artıq dünyanın ən mötəbər sərgi-yarmarkalarından biri hesab olunur. O, İzmirin gözəl guşələrindən olan Mədəniyyət parkında təşkil edilir. Bu il sərgi-yarmarkaya maraq daha böyük olub. Adətən orada xarici ölkələr Türkiyə ilə əməkdaşlığı inkişaf etdirə biləcək layihələr təklif edirlər. Builki tədbirdə həmin istiqamətdə daha çox fərqlənən Rusiya Federasiyası olub.




Rusiyanı sərgi-yarmarkada energetika naziri Aleksandr Novakın başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. Tədbir çərçivəsində xüsusi konfransların, seminarların, müzakirələrin keçirilməsi bir ənənəyə çevrilib. 86-cı sərgi-yarmarkada Türkiyə ilə Rusiya innovasiya, yüksək texnologiyalar, enerji və s. sferalarda qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək imkanlarını müzakirə ediblər (bax: Prorıv na öjnom napravlenii: kak Rossiə zakrepləetsə v Turüii / "Rossiə seqodnə", 19 avqust 2017).

Türkiyə və Rusiya nümayəndə heyətləri görüşdən sonra ümidverici bəyanatlarla çıxış ediblər. Tərəflər iki ölkə arasında ticarət dövriyyəsini 100 milyard dollara çatdırmaqda qərarlı olduqlarını bəyan ediblər. A.Novak türk iş adamlarının Rusiya iqtisadiyyatına 10 milyard ABŞ dolları həcmində sərmayə qoyduğunu açıqlayıb. Ruslar da təqribən eyni həcmdə Türkiyə iqtisadiyyatına sərmayə qoyublar. Ancaq bu rəqəmi dəfələrlə artırmaq lazım gəldiyi də qeyd olunub.

Bunun üçün bir sıra imkanlar mövcuddur. Məsələn, Rusiya 2018-ci ildə Türkiyədə Aksu nüvə reaktoru quraşdırmağa başlamalıdır. Qaz sahəsində böyük layihənin reallaşdırılmasına başlanılıb. Kənd təsərrüfatı məhsulları artıq Rusiyaya aparılır. Bundan başqa, Türkiyə də Rusiyadan lazımi malları alır. O cümlədən hərbi sahədə əməkdaşlıq yeni səviyyəyə yüksəlir. Buna misal olaraq Rusiyanın S-400 zenit-raket sistemlərini Türkiyəyə satmasını göstərmək olar. Prezident Rəcəb Tayyib Ərdoğan bununla bağlı müqavilənin imzalandığı haqqında bəyanat verib.

Rusiyalı ekspertlər iki böyük dövlət arasında əlaqələrin inkişaf etdirilməsinin hər iki tərəfə faydalı olduğu barədə analitik yazılar dərc edirlər. Onu vurğulayaq ki, cəmi bir neçə ay bundan öncə belə növ yazılar nadir hallarda mətbuatda dərc edilirdi. Rusiya mətbuatı adətən erməni daşnakların və kürd separatçıların maraqlarına uyğun gələn qərəzli yazıları çap edirdilər. Ancaq son dövrlərdə bu tendensiya səngimiş kimi görünür, çünki iki ölkənin rəsmiləri konkret əməkdaşlıq layihələrini sürətlə həyata keçirirlər. Əlavə olaraq, Rusiyadakı sağlam ekspert dairələri və analitik qruplar reallığı görürlər. İndi deyə bilərik ki, Türkiyə ilə Rusiya arasında tarixi dostluq və tərəfdaşlığın real təməllər üzərində qurulması üçün şans yaranıb.

Burada bir məqamı mütləq vurğulamaq gərəkdir. Rusiya və Türkiyə arasında münasibətlərin konstruktiv məcraya yönəlməsində Ulu öndər Heydər Əliyevin çox ciddi fəaliyyəti olub. Bu kursu indi İlham Əliyev uğurla davam etdirir. Bunun nümunəsi kimi Ankara-Moskva qarşıdurması yarananda, Azərbaycan Prezidentinin xüsusi fəallıq göstərməsini xatırlada bilərik. Şübhəsiz, Rusiya və Türkiyə kimi iki böyük dövlət arasında əməkdaşlıqdan Azərbaycan da böyük fayda görə bilər.

### Moskva-Ankara əməkdaşlığı: Azərbaycan faktorunun nəzərə alınması

Əslində, bu məqamı rusiyalı analitiklər ayrıca qeyd edirlər. Məsələn, yuxarıda vurğuladığımız məqalədə Rostislav İşenko yazır ki, Ankara-Moskva münasibətlərinin inkişaf etməsi Qafqazdakı türk xalqları məsələsində tərəflərin daha müsbət tonda razılaşmasına imkan yaradacaq. Belə ki, mədəniyyət və tarixi olaraq Türkiyəyə meyl edən Qafqaz türkləri ilə bağlı Ankara Rusiyanın maraqlarını nəzərə alaraq siyasət yeridə bilər. Və eyni zamanda, Moskva regionda Ankaranın maraqlarını ciddi surətdə nəzərə ala bilər (bax: əvvəlki mənbəyə).

Rusiyalı ekspert bundan başqa Bosfor və Dardanel boğazlarının Rusiya hərbi donanması üçün açılması imkanını yüksəldiyini vurğulayır. Doğrudur, beynəlxalq konvensiyalar indi də rus hərbi gəmilərinə sərbəst surətdə boğazlardan keçməyə imkan verir, lakin bir sıra incə məqamlar vardır ki, onlar istənilən zaman vəziyyətin dəyişə bilməsini göstərir. Dost Türkiyə isə ən çətin zamanda belə Rusiya gəmilərinə yolu bağlamaz. Hazırda Yaxın Şərqdə geosiyasi mübarizə aparan Moskva üçün bunun nə dərəcədə əhəmiyyətli olduğunu dərk etmək çətin deyil.

Digər arqument Türkiyənin geosiyasi nüfuzu ilə bağlıdır. Rostislav İşenko vurğulayır ki, Rusiya-Türkiyə müttəfiqliyi Cənubi Qafqazda sabitlik və sülhün təminatçısıdır. Bu tezis xüsusilə erməni ekspertlərin regionda Ermənistanın rolu ilə bağlı gətirdikləri süni arqumentləri sabun köpüyü kimi dağıdır. Ermənilər sübut etməyə çalışırlar ki, Ermənistan-Rusiya əməkdaşlığı regionda sabitliyi təmin edir. Rusiyalı analitik isə tamamilə fərqli fikir ifadə edir. Regionda Rusiya-Türkiyə dostluğu real olaraq sakitliyin və sabitliyin təminatçısıdır. Şübhəsiz, Rusiya və Türkiyə qarşılıqlı anlaşma içərisində olurlarsa, orada mütləq Azərbaycan da var. Yəni, əslində, regionda sülh, sabitlik və əmin-amanlığı Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlığı təmin etməkdədir.

Bundan başqa, analitik rus-türk dostluğunun Krımın təhlükəsizliyinə, Ukraynada anti-Rusiya əhval ruhiyyəsinin yatırılmasına böyük töhfə verdiyini vurğulayır (bax: əvvəlki mənbəyə). Bütövlükdə bu müttəfiqlik Rusiyanın cənub-qərb sərhədlərinin qorunmasında əvəzsiz imkanlar yaradır. Bu, Moskvaya hərbi qüvvələrini daha balanslı bölməyə şans verir. Cənub istiqamətində həddindən çox hərbi güc toplamaq zərurətini aradan qaldırır.

Rostislav İşenko bunlarla yanaşı onu da qeyd edir ki, Rusiyanın Türkiyə və İranla əməkdaşlığı Suriya böhranının həllində uğur əldə etməyə əlavə imkanlar yaradır. Bununla Rusiya özü üçün strateji əhəmiyyəti olan bir regionda möhkəmlənmək imkanı əldə edir (bax: əvvəlki mənbəyə).

Nəhayət, Türkiyə ilə əməkdaşlıq Rusiyaya Qərb qarşısında bəzi coğrafi və hərbi üstünlüklər verir. Bunu Rostislav İşenko onunla izah edir ki, Türkiyə Avropada ən güclü orduya sahibdir və NATO bu faktdan Rusiyanı təcrid etmək, yaxud ən azından onu sıxışdırmaq üçün istifadə edir. Buna siyasətdə "türk kartı" deyilir. Bununla NATO və ABŞ-ın əlindən "türk kartı" alınır ki, onun da əhəmiyyətini Kreml çox gözəl bilir.

Bütün bunlar onu təsdiq edir ki, İzmir sərgi-yarmarkasında Rusiya və Türkiyə arasında yüksək səviyyədə əməkdaşlıq barədə müzakirələrin aparılması böyük nəticələr verə bilər. Belə ki, bütün sahələr üzrə əlaqələr strateji səviyyəyə yüksələ bilər. Bu da özlüyündə geniş geosiyasi məkanda dinamikanın ciddi surətdə yeniləşməsinə təkan verər. Lakin rus analitik bunun üçün Türkiyənin sabit strateji tərəfdaşa çevrilməsi gərəkliyini vurğulayır. Bu necə mümkün ola bilər?

Bu suala Rostislav İşenko cavab verməyə çalışır. Onun məntiqinə görə, başlıca olaraq iki ölkə arasında konkret əməkdaşlıq layihələrini reallaşdırmaq və onların sayını artırmaq lazımdır. Bu istiqamətdə fəaliyyətin yüksək texnologiyalı silahlar, nüvə enerjisi və qaz sahəsində əməkdaşlığı inkişaf etdirməkdən ibarət olduğunu qeyd edir.

Təbii ki, sadalanan faktorların hər birinin ciddi əhəmiyyəti vardır. Ancaq Rusiya və Türkiyə arasında əməkdaşlığın sabit strateji xarakter alması üçün başqa bir amil də tələb olunur. Bu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlıdır. Yəni bu məsələ reallaşmasa, Ankara-Moskva münasibətlərinin tam olaraq səmərəli relsə düşməsi imkansızdır. Proseslərin gedişinin də bu tezisin doğru olduğunu təsdiqləyəcəyinə əminik.

**Newtimes.az**

# Binəqədi rayonunun nümayəndə heyəti Cocuq Mərcanlıya səfər edib






Binəqədi rayonunun icra hakimiyyətindən və YAP Binəqədi rayon təşkilatından olan nümayəndə heyəti Cocuq Mərcanlıya səfər edib. Nümayəndə heyəti səfər çərçivəsində, ilk öncə, aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək, önünə əklil qoyublar. Daha sonra nümayəndə heyəti Cocuq Mərcanlıda yeni inşa olunmuş 96 şagird yerlik məktəblə tanış olaraq məktəbə hədiyyələr, yeni tədris ilində məktəbə gedəcək şagirdlərə məktəbli geyimləri, idman formaları və avadanlıqları, məktəb ləvazimatları, surətçıxarma aparatı təqdim etmiş, ibtidai hərbi hazırlıq fənni üzrə sinif otağını xüsusi ləvazimatlarla və digər zəruri avadanlıqlarla təchiz etmişlər.

Məktəblə tanışlıqdan sonra Binəqədi nümayəndə heyəti kənd sakini Oqtay Həziyevin evində olaraq ailə ilə səmimi söhbət ediblər. Görüşün sonunda ailəyə Binəqədi rayon icra hakimiyyəti tərəfindən hədiyyələr təqdim edilib. Səfər çərçivəsində nümayəndə heyəti Prezident İlham Əliyevin tapşırığına əsasən, Cocuq Mərcanlı kəndində inşa edilmiş məscidlə yaxından tanış olublar.

Səfərin sonunda nümayəndə heyəti Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində törədilən cinayət nəticəsində həlak olmuş Zəhra Quliyeva və onun nənəsi Sahibə Allahverdiyevanın məzarını ziyarət edərək, üzərinə çiçək dəstələri qoyublar.

Yeni tədris ili ərəfəsində Binəqədi rayon nümayəndə heyətinin Cocuq Mərcanlıya səfəri xoş təəssüratlarla yekunlaşıb.

**ZÜMRÜD BAYRAMOVA**

# Yeni monoqrafiya: "Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan papaqlı göbələklər"




Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun böyük elmi işçisi Həmidə Seyidovanın "Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan papaqlı göbələklər" monoqrafiyası nəşr olunub. AMEA-dan AZƏRTAC-a bildiriblər ki, monoqrafiya Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan papaqlı göbələklərin taksonomik spektri, botaniki-coğrafi xüsusiyyətləri, nadir növlərin mühafizəsi istiqamətində aparılan elmi-tədqiqat işlərinin nəticələrinə həsr olunub.

2007-2015-ci illərdə Şahbuz rayonunun Mərəlik, Sələsüz, Badamlı, Daylaqlı, Külüs, Keçilli, Qarababa, Mahmudoba, Nursu, Kükü, Kolanı və digər yerlərinə təşkil edilən ekspedisiyalar zamanı papaqlı göbələklərin növ tərkibi və yayılma zonaları dəqiqləşdirilib, onların mövsümi dinamikasının illər üzrə dəyişilməsi müəyyənləşdirilib.

Qeyd edək ki, tədqiqat dövründə toplanılan materiallar əsasında Şahbuz rayonunda 2 sinif, 7 sıra, 25 fəsilə, 57 cinsə aid olan 93 növ papaqlı göbələk müəyyən edilib ki, onlardan da 16 fəsilə, 45 cins və 84 növ Naxçıvan mikobiotası üçün ilk dəfə olaraq verilir. Toplanılan göbələklərdən 4 cins, 18 növ isə Azərbaycan mikobiotası üçün ilk dəfə aşkar edilib.

Aparılan tədqiqatlar zamanı müəyyən olunub ki, ərazidə papaqlı göbələklərin 42 yeməli, 30 yeməli olmayan və 6 zəhərli növü vardır. Yeni nəşr göbələklərə dair məlumatların öyrənilməsində, bioloji müxtəlifliyin qiymətləndirilməsində, ətraf mühitin mühafizəsinə dair proqramların hazırlanmasında, orta və ali məktəblərin tədris proqramlarının həyata keçirilməsində əsas mənbə kimi istifadə oluna bilər.

# "Zaman və məkan" adlı müsabiqə keçiriləcək

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "Zaman və məkan" adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

# Nizami rayonunda aztəminatlı ailələrin uşaqlarına məktəb çantası və məktəb ləvazimatları hədiyyə edilib



Yeni Azərbaycan Partiyasının Nizami rayon təşkilatının qərargahında yeni dərs ili ilə əlaqədar aztəminatlı ailələrin nümayəndələri ilə görüş keçirilib. Görüşdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva qarşıdan gələn 15 Sentyabr Bilik Günü münasibətilə valideynləri və şagirdləri təbrik edib: "Rayon təşkilatı, ənənəvi olaraq, hər il 15 Sentyabr - Bilik Günü ərəfəsində rayonda yaşayan aztəminatlı ailələrin nümayəndələri ilə görüşür və onların övladlarına məktəb çantası və məktəb ləvazimatları hədiyyə edir. S.Vəliyeva bu humanitar aksiyanın Ulu Öndər Heydər Əliyevin və Onun layiqli davamçısı Prezident İlham Əliyevin tövsiyəsi ilə keçirildiyini bildirib: "Ulu Öndərimiz daim imkansız ailələrə kömək etməyi tövsiyə edirdi. Biz bu tövsiyəyə sadiq qalaraq, hər zaman belə insanlara diqqət göstərməyi özümüzə borc bilirik". "YAP daim humanizm mövqeyindən çıxış edərək, bu cür tədbirləri gələcəkdə də davam etdirəcək", - deyən deputat arzularını ifadə edərək, məktəbin müqəddəs ocaq olduğunu deyib. Valideynlər isə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, eyni zamanda Yeni Azərbaycan Partiyasına minnətdarlıq ediblər.



Sonda bu il 1-4-cü siniflərə gedəcək 150-dən artıq uşağa məktəb çantası və məktəb ləvazimatları hədiyyə olunub.

**R.HÜSEYNOVA**

# AXCP sədrinin erməni sevgisinə daha bir sübut!

*Əli Kərimli: "Ermənistan inkişaf edir..."*



***AXCP sədri Əli Kərimlinin "peşələrindən" biri də "facebook"da hakimiyyətə qarşı böhtançı fikirləri əsasında "klaviatura qəhrəmanlığı" nümayiş etdirərək, mətbuata çıxmağa çəkinməsidir. Xüsusilə, "dostlar"-deyə bənzər müraciətləri ilə özünü "dahi siyasətçi" kimi təqdim edən Ə.Kərimli öz böhtanlarına o qədər aludə olur ki, sonda onunla düşmən ölkənin Ermənistan siyasətçiləri arasında heç bir fərq qalmır. Çünki bu gün Azərbaycana qarşı işğalçılıq siyasəti yürüdən erməni mediası Azərbaycanın dövlətçilik maraqlarına qarşı necə çıxışlar edirsə, Ə.Kərimlinin çıxışlarından qətiyyən fərqlənmir. Əbəs yerə deyil ki, AXCP sədrinin fikirləri zaman-zaman erməni mediasında manşet xəbərlər silsiləsində yer alır.***

### Əli Kərimlinin fikirləri onun Azərbaycan xalqına və dövlətinə qarşı hansı dərəcədə düşmən kəslidiyinin bariz göstəricisi olaraq qiymətləndirilə bilər

Bu dəfə Ə.Kərimlinin Azərbaycan hakimiyyətini Ermənistan iqtidarı ilə eyniləşdirməsi isə onun, həqiqətən də, Azərbaycan xalqına və dövlətinə qarşı hansı dərəcədə düşmən kəslidiyinin bariz göstəricisi olaraq qiymətləndirilə bilər.

Misal üçün, AXCP sədri sosial şəbəkədə Azərbaycan dövlətinin xalq üçün gördüyü böyük işlərə kölgə salmaqdan ötrü, Ermənistan rəhbərliyini "işlər" qarşısında aciz göstərməyə cəhd edir. Misal üçün, bir neçə gün öncə, Azərbaycan hakimiyyətinin Cəlilabadda magistral avtomobil yollarını, telekommunikasiya qovşağını, aqroparkı, içməli su təchizatı və kanalizasiya şəbəkəsini açması Ə.Kərimlinin kefinə, necə deyərlər, soğan doğrayıb. Yəni fakt budur ki, Azərbaycanda gedən inkişaf və tərəqqini, xalqın sosial rifah halının yaxşılaşdırılmasına yönəldilmiş işləri ermənilərin bəyənmədiyi qədər elə Ə.Kərimli də bəyənmir. Məhz bu baxımdan, onunla düşmən erməni arasında hər hansı bir fərq axtarmağa dəyməz. Bunu o öz dili ilə etiraf edir.

### Bu da azmış kimi, FHN-də xidmət edən Azərbaycan əsgərləri də ələ salınır

Ümumiyyətlə, görülən hər bir işə, öz təbirincə, ironik yanaşan bu ermənisifət siyasətçi, bu da azmış kimi, Qəbələdə meşə yanğınlarının söndürülməsi zamanı əsl şücaət göstərən FHN əməkdaşlarını və bu quruma aid olan hərbçiləri açıq-aşkar ələ salıb. Onun təkcə bir ifadəsinə nəzər salaq. Məsələn, "...Nəhəng meşə yanğınını bel və vedrə ilə söndürməyə çalışan "xüsusi təyinatlılarımızın" bacarığı və mübarizə əzmi düşməni lərzəyə salıb..."-deyə erməncəsinə fikir yürüdən Ə.Kərimli bunun yerinə Serj Sarkisyanın Ermənistanı işğal altındakı Ağdərə yolu ilə birləşdirən Vardenis-Ağdərə yolunun açılışını az qala nəhəng iş kimi qiymətləndirib. Söz yox ki, xəyanətkar və satqın AXCP sədrinin bu ifadələri çox yaxında Ermənistan mətbuatının xəbər başlıqlarını "bəzəyəcək"...

Beləliklə, onun bu cür rüsvayçı və xəyanətkar çıxışları, bilavasitə cəmiyyətdə ona qarşı olan ikrah və nifrət hisslərini daha da artırmış olur.

### Əli Kərimli uzun illərdir ki, erməni lobbisinin Qərb təşkilatlarına verdiyi maddi dəstəklərdən öz tulapayını alıb və təşəkkür quyruqbulaması edir

Lakin o da bəllidir ki, Azərbaycanda demokratik mühit mövcuddur və real müxalifət normal, sivil və siyasi baxışları ilə, eləcə də, hörmət çərçivəsində hakimiyyəti tənqid edə bilər. Üstəlik dialoqlara qatılıb təkliflərini də irəli sürə bilmək hüququ normal müxalifətdə daim olub. İctimai rəy dəfələrlə iqtidar-müxalifət dialoqlarının şahidinə çevrilib, ancaq bu dialoqların heç birində Ə.Kərimli olmayıb. İndi isə sosial şəbəkədə özünü və ətrafını gülünc vəziyyətə qoyaraq aşkar polyaçiliklə məşğul olur, Azərbaycan dövlətinin gördüyü işləri düşmən qarşısında alçaltmağa cəhdlər göstərir. Niyə məhz Ermənistanın? Çünki Ə.Kərimli uzun illərdir ki, erməni lobbisinin Qərb təşkilatlarına verdiyi maddi dəstəklərdən öz tulapayını alıb. İndi də həmin payına görə təşəkkür quyruqbulamaları etməklə məşğuldur. Yuxarıdakı bənzər ifadələri ilə...

Hələ aprel müharibəsində onun erməni KİV-lərində necə ulduza çevrilməsini kimsə unutmayıb. Nəticə etibarilə, inkişaf və tərəqqi edən Azərbaycanı ac, yoxsul və kriminal Ermənistan rejimi ilə müqayisə etməsi, heç bir potensiala sahib olmayan işğalçı ölkənin "inkişaf" etdiyini zorla insanlara sırıması, ona qarşı olan hədsiz nifrəti daha da artırmış oldu. Bəli, bu gün Ə.Kərimliyə kimin nifrəti varsa, bu nifrət birə-on qat artdı!

**Rövşən RƏSULOV**

# Moskvada banka basqın etmiş erməni 12 il həbs olundu

Moskva məhkəməsi ötən il "Sitibank"a basqın edərək insanları girov götürmüş Aram Petrosyanı 12 il azadlıqdan məhrum edib. İki və daha artıq şəxsi girov götürməkdə və terror aktı törətməkdə təqsirli bilinən A.Petrosyan cəzasını cidi rejimli koloniyada çəkəcək. Xatırladaq ki, 2016-cı il avqustun 26-da Petrosyan "Sitibank"ın Moskvanın mərkəzindəki filiallarından birində 4 nəfəri girov götürərək partlayış törədəcəyi ilə hədələmişdi. Danışıqlardan sonra o, girovları azad etmişdi. Onun əlindəki qurğunun isə mulyaj olduğu aşkara çıxmışdı.

# "Ümidli deyiləm"

*Azər Həsrət: "Sarkisyan bütün fəaliyyəti dövründə Azərbaycana düşmən mövqeyindən çıxış edib"*

***- Azər müəllim, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı növbəti görüşünün keçiriləcəyi planlaşdırılır. Sizcə, bu görüş münaqişənin həllində hansısa rola malik ola bilərmi?***



*Müsahibimiz siyasi şərhçi Azər Həsrətdir*

- Ümidli deyiləm. Ümumiyyətlə, belə görüşlərin keçirilməsinə qarşı olmasam da, təcrübəyə əsaslanıb deyə bilərəm ki, nəsə bir nəticə gözləməyə dəyməz. Çünki Azərbaycan nə qədər konstruktiv olsa da, Ermənistan bir o qədər destruktivdir. Ona görə də bu cür görüşlər baş tutur, amma nəticə olmur. Nəticənin olması üçün Ermənistanın da Azərbaycan kimi Dağlıq Qarabağ münaqişəsinin həllində konstruktiv mövqe nümayiş etdirməsi lazımdır. Amma reallıq odur ki, hələ Ermənistndan konstruktiv yanaşma gözlənirmir. Buna nail olmaq üçün beynəlxalq güclərin Ermənistana iqtisadi və siyasi sanksiya tətbiq etmələri vacibdir.

***- Xarici işlər nazirlərinin görüşü Rusiya mətbuatında Azərbaycanın işğal olunmuş beş rayonunun yaxın vaxtlarda qaytarılacağı ilə bağlı məlumatların dərc edilməsi zamanına təsadüf edir. Bu baxımdan, nə dərəcədə realdır ki, həqiqətən də, görüşdə bir nəticə əldə olunsun?***

- Rusiya mətbuatı da, eləcə də, digər ölkələrin mətbu orqanlarında bu haqda yazılanlar, sadəcə olaraq, bu yaxınlarda ATƏT-in Minsk Qrupunun keçmiş həmsədrinin açıqlamasını əsas götürüb. Bəlli olur ki, masa üzərində konkret təkliflər var.

Amma yenə də Ermənistanın münaqişənin həllinə destruktiv yanaşması nəticənin sıfıra bərabər olacağını proqnozlaşdırır.

***- Mətbuatdan da bəlli olduğu kimi, Sarkisyan münaqişənin həlli ilə bağlı masa arxasında oturmaq fikrində deyil. Bunun fonunda, Ermənistanın münaqişənin həlli ilə bağlı hansısa konstruktiv mövqe gözləməyə və yaxud da Rusiya mətbuatının yazdığı kimi, beş rayonun qaytarılacağı ilə bağlı məlumatlara inanmaq nə dərəcədə realdır?***

- Ortada konstruktiv mövqe olmayanda, təbii ki, nəticə haqqında optimist fikir söyləmək mümkün deyil. Sarkisyan bütün fəaliyyəti dövründə Azərbaycana düşmən mövqeyindən çıxış edib, bunu ən yüksək tribunalardan səsləndirib və bütün əməllərini də bunun üzərində qurub. Sarkisyan kimi bir adamın başçılıq etdiyi işğalçı ölkəylə hər hansı konstruktiv dialoqdan söhbət gedə bilməz. Ermənistan prezidenti bu danışıqları üzü yoxuşa sürüməklə öz xalqının başını qatmaq, hakimiyyətdəki imkanlarının təsir müddətini uzatmaq istəyir. Yəni o, münaqişənin həllində, əslə maraqlı deyil. Bütün görüşlərə və danışıqlara imitasiya xatirinə razılıq verir və iştirak edir. Ona görə də, hansısa rayonların qaytarılacağıyla bağlı fikirlər elə fikir olaraq qalacaq.

**GÜLYANƏ**

# Avtomobillərin icbari sığortası 23 faiz artıb

Cari ilin avqust ayı ərzində İcbari Sığorta Bürosunun informasiya sistemində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (AVSMMİS) üzrə 114 min 555 elektron sığorta müqaviləsi qeydiyyata alınıb. Bürodan AZƏRTAC-a bildiriblər ki, bunlardan 17 min 903-ü xarici ölkələrdə qeydiyyata alınıb və Azərbaycan Respublikasına tranzit məqsədilə daxil olan avtonəqliyyat vasitələri üzrə bağlanılan müqavilələr olub. Hesabat dövründə bağlanılan standart və sərhəd sığorta müqavilələri üzrə sığorta şirkətlərinə daxil olan sığorta haqları 8 milyon 833 min 587 manat təşkil edib. Ötən ilin eyni dövrü ilə müqayisədə sığorta müqavilələrinin sayında 23 faiz artım, sığorta haqlarının məbləğində isə 20 faiz artım müşahidə edilib.

# Keçən ay daşınmaz əmlakın icbari sığortası üzrə 9 min 326 müqavilə bağlanıb

Avqustda daşınmaz əmlakın icbari sığortası (DƏİS) üzrə 9326 sığorta müqaviləsi bağlanıb. İcbari Sığorta Bürosundan AZƏRTAC-a bildiriblər ki, daşınmaz əmlakın icbari sığortası üzrə sığorta şirkətlərinə daxil olan sığorta haqlarının məbləği 2 milyon 80 min 459 manat təşkil edib. Daşınmaz əmlakın icbari sığortası müqavilələrinin 7360-ı yaşayış evləri və mənzillər, 29-u inzibati binalar, 1937-i isə digər daşınmaz əmlakla bağlı olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakın icbari sığortası üzrə müqavilələrin sayında 47 faiz azalma, sığorta haqlarının məbləğində isə 2 faiz azalma müşahidə edilib. Hesabat dövründə daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 321, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə 4 sığorta müqaviləsi bağlanılıb. Hazırda daşınmaz əmlakın icbari sığortası növü üzrə İcbari Sığorta Bürosunun iştirakçıları olan 13 sığorta şirkəti ("Atəşgah" Sığorta Şirkəti ASC, "Standard Insurance" Sığorta Şirkəti ASC, "AtaSığorta" ASC, "Xalq Sığorta" ASC, "PAŞA Sığorta" ASC, "AXA MBASK" Sığorta Şirkəti ASC, "AzSığorta" ASC, Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti, "Meqa Sığorta" ASC, "İpək Yolu Sığorta" ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "Qala Sığorta" ASC, "Günay Sığorta" ASC) fəaliyyət göstərir.

# 11 sentyabr terror aktından 16 il ötür

***2001-ci il 11 sentyabr tarixində ABŞ-da dünya tarixində misli görünməmiş terror aktının baş verdiyi tarixdən 16 il ötür. Həmin gün səhər saatlarında "Boeing 767" tipli iki təyyarə Ümumdünya Ticarət Mərkəzinin 110 mərtəbəli qoşa binalarına, "Boeing 757" tipli üçüncü təyyarə Vaşinqtonda yerləşən ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) binasına çırpılıb. "Boeing 757" tipli dördüncü təyyarə isə Pitsburq şəhərindən 80 mil məsafədə yerə düşüb. "American Airlines" və "United Airlines" aviakompaniyalarına məxsus həmin təyyarələrin terrorçu-kamikadzelər tərəfindən qaçırıldığı bildirilir.***



Terror aktı nəticəsində Nyu-York şəhərinə dəyən maddi zərərin ümumi həcmi 36 milyard dollar təşkil edib. "Əkiz" binaların dağıntılarının təmizlənməsi isə 8 aydan çox vaxt aparıb. Pentaqonun binasının dağılmış qərb hissəsi 2002-ci ilin sentyabr ayında bərpa olunub. Faciə nəticəsində, təxminən 3 min insan həlak olub, 6000-dən çox insan isə yaralanmışdır. Bu sıraya qaçırılmış dörd təyyarənin içərisində olan 265, Dünya Ticarət Mərkəzində 2606 və ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) binasında 125 adam daxildir. Ölənlərdən 2605-i ABŞ vətəndaşı, yerdə qalan 372-i isə 60-dan çox ölkənin vətəndaşları olub. Mütləq əksəriyyət mülki vətəndaşlardan ibarət olsa da, qurbanlar arasında 70-dən çox polis zabiti, 343 yanğınsöndürən və 55 hərbçi olub. Hücumlardan sonrakı bir il ərzində dövlət orqanları 11 sentyabr terror hücumları ilə əlaqədar 2,753 ölüm şəhadətnaməsi veriblər. 11 sentyabrda Nyu York şəhərinin 75 yanğınsöndürmə məntəqəsi hərəyə azı bir işçisini itirib.

Əkiz Binaların şimal qülləsini vurulan an hər iki binada, ümumilikdə 14000 adamın işlədiyi təxmin edilir. Binaların vurulduğu 90-cı mərtəbədən aşağıdakı mərtəbələrdə olan adamların çoxu salamat şəkildə evakuasiya olunmağa macal tapıb. Cənub qülləsinin mərkəzi dirəyi yanğın nəticəsində əridikdən sonra bina 9:59-da, Şimal Qülləsi isə 10:28-də çöküb. Yanan binanı söndürməyə və insanları evakuasiya etməyə gəlmiş xilasetmə komandalarının əksər qismi, məhz bu çöküş zamanı həlak olub. Təyyarənin birbaşa vurduğu mərtəbələrdə və ondan yuxarıdakı mərtəbələrdə ilişib qalan adamların cüzi hissəsi sağ qala bilib.

11 sentyabr terroru haqda ən az danışılan faktorlardan biri göydələnlərin yuxarı mərtəbələrində ilişib qalmış adamların yerə atılmalarıdır. Ehtimal edilir ki, 50-200 arasında insan göydələndən yerə atıldığı üçün həyatını itirib.

11 sentyabr hücumunun qurbanları həmin gün həlak olan adamların sayı ilə məhdudlaşmır. Son 16 ildə "Ground Zero" adlanan hücum baş verdiyi ərazidə olmuş, orada təmizləmə işləri aparmış minlərlə adamda xərçəng xəstəlikləri aşkar olunub. 2014-cü ildə 2500 polis, yanğınsöndürən, təcili yardım və sanitasiya işçisində müxtəlif növ terminal xəstəliklər qeydə alınıb. Nyu York Yanğınsöndürmə Departamenti 863 yanğınsöndürən və təcili yardım içisinin, məhz 11 sentyabr işləri ilə əlaqədar xərçəngə tutulduğunu müəyyən edib. Həkimlər ərazidə işləmiş adamlarda ciyərlərə "toksik toz" udulması nəticəsində xərçəng riskinin yüksək olduğunu bildirir. Terrorun episentrində işlədiklərinə görə xəstələnmiş adamlara, ümumilikdə $50 milyon dollar həcmində təzminat ödənilib.

Hadisənin təhqiqatı ilə ABŞ-a terror hücumları üzrə milli komissiya məşğul olub. Təhqiqatın nəticələrinə dair 2004-cü ildə dərc edilən məruzədə bildirilir ki, terror aktının qarşısının alınmasına Birləşmiş Ştatların kəşfiyyat xidmətlərinin fəaliyyətində koordinasiyanın olmaması əngəl törədib. Bir müddət sonra ABŞ Prezidenti Corc Buş kəşfiyyat xidmətlərində islahatlar aparılması barədə sərəncam imzalayıb.

11 sentyabr hadisələri terrorla mübarizədə beynəlxalq fəallığı gücləndirib. 2001-ci ilin oktyabrında ABŞ və Böyük Britaniya Əfqanıstanda hərbi əməliyyatlara başlayıb. Əməliyyatlar terror aktında ittiham olunan "Əl-Qaidə" təşkilatına və onları dəstəkləyən "Taliban" hərəkatına qarşı yönəlib.

Ümumdünya ticarət mərkəzinin yerində həlak olanların xatirəsinə müvəqqəti abidə qoyulub. "Əkiz" qüllələrin yerində hadisə qurbanlarının adlarının həkk edildiyi memorial kompleksin açılışı olub. ABŞ-da 11 sentyabr hadisələrinə həsr olunmuş muzey fəaliyyətə başlayıb. Muzeyin əsas hissəsi yer səthindən 20 metr dərinlikdə yerləşir. Ekspozisiyada, əsasən, insanların qaçaraq xilas olmağa çalışdıqları beton pilləkən, dağılan binanın polad karkasının fraqmentləri, dağıntılar altında qalaraq əzilmiş yanğınsöndürən maşın və terror aktı qurbanlarının şəxsi əşyaları nümayiş olunur.

Günahsız terror aktının qurbanına çevrilən insanların faciəsi yaşadığımız 21-ci yüzillikdə baş verdi. Dünyanın ən böyük və qanlı təxribatı kimi tarixə düşən 11 sentyabr terrorunun görüntüləri seyr edənlərin yaddaşından heç vaxt silinməyəcək həmin gün, sözsüz ki, təkcə terror hücumuna məruz qalmış ABŞ üçün deyil, bütün dünya üçün misilsiz bir faciəli hadisə idi. Terrorun törətdiyi faciələri yaşayan bəşəriyyət bu və digər terror aktlarından ibrət götürməli, insanları hədəf almış vəhşiliklərə qarşı beynəlxalq aləm həmrəy olmalıdır.

**ZÜMRÜD**

# Leyla Yunus Əli Kərimli ilə eyni əqidəni bölüşür



Son günlər Leyla Yunusun, eləcə də, digər siyasiləşmiş QHT-lərin müxalifətin dağıdıcı qanadı ilə daha çox fəal əlaqələr qurduğu müşahidə edilir. Söz yox ki, bu əlaqələrin başlıca maraq dairəsi ölkədə pozuculuq aktları həyata keçirmək, stabilliyi pozmaq, ümumiyyətlə, xarici fondların, təşkilatların məkrli sifarişlərini yerinə yetirməkdir.

### Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov:

- Bu cür "fəallaşma" istər Leyla Yunus, istərsə də, digər siyasiləşmiş QHT-lər tərəfindən onlara havadarlıq edən, maliyyə dəstəyi göstərən xarici qüvvələrdən tapşırıq gəldiyi anda özünü göstərir. Bunlar, guya siyasi prosesləri idarə edirlər kimi fon yaratmaqla yalançı görüntü yaratmaqla, xaricdən milyonlarla vəsaiti mənimsəməyə sanki adət etmişlər. Eyni zamanda, bu qüvvələr ölkəmiz barədə, ölkədəki demokratiya mühiti, insanların hüquqlarının təmin edilməsi barədə həqiqətəuyğun olmayan alternativ hesabatların hazırlanmasında iştirak edirlər. Hansı ki, sonradan dəfələrlə bu cür məkrli niyyətlərin arxasında hansısa Sorosların, erməni lobbisinin, bir sözlə, Azərbaycanın inkişaf etməməsində maraqlı olan güclərin durması öz təsdiqini tapmışdır. Yəni istər Arif və Leyla Yunusların, istərsə də onun düşüncəsində olan siyasiləşmiş QHT-lərin bir marağı var: daha çox ölkənin siyasi imici barədə mənfi rəy formalaşdırmaq və bunun müqabilində maliyyə vəsaitləri əldə etmək. Bu istiqamətdə əməkdaşlıq kiminlə olursa, fərq etməz. Təbii ki, ölkənin sağlam qüvvələri ilə bu yöndə əməkdaşlıq mümkün deyildir və əsas əməkdaşlıq etdikləri bir qrup istisnadır ki, bu da 25 ildən artıq müddətdə dağıdıcı fəaliyyətləri ilə siyasi səhnədə kölgə effekti yaradan və həm keçmişi, həm hazırkı durumu və həm də gələcək perspektivləri tamamilə uğursuzluğa məhkum olan radikal müxalifətdir. Bu qrupların adı ölkəmiz haqqında yanlış mənfi imic yaratmağı məqsəd olaraq qəbul etmiş müxtəlif siyasi dairələrlə, Azərbaycana qarşı düşmən mövqeyində dayanmış erməni lobbisi ilə əməkdaşlıqda hər dəfə hallanır və fakt olaraq öz sübutunu tapır. Bu qrupun siyasi fəaliyyəti onsuz da uğurlu heç nə vəd etmir, həm Əli Kərimlini, həm onunla eyni əqidəni bölüşən Leyla Yunus və digər siyasiləşmiş QHT rəhbərlərini birləşdirən bir maraq və məqam var ki, o da ölkəmiz haqqında böhtan dolu "informasiyaları" öz himayədarlarına ötürmək və bu vasitə ilə maliyyə dəstəyi əldə etməyə nail olmaqdan ibarətdir.

### İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov:

- Hazırda müəyyən "beynəlxalq təşkilatlar" Azərbaycanla bağlı çirkin kampaniyaya başlayıblar. Leyla Yunusun, eləcə də, digər siyasiləşmiş QHT-lərin müxalifətin dağıdıcı qanadı ilə daha çox fəal əlaqələr qurduğunun müşahidə olunması 2018-ci ildə keçiriləcək prezident seçkilərinə hesablanan bir məsələdir. Bu baxımdan, hər zaman olduğu kimi, 2018-ci ildə də müxalifət düşərgəsini təmsil edən partiya sədrləri seçkiləri uduzacaqdır. Çünki bunu hər kəs və o cümlədən, onlar da bilir ki, xalq tərəfindən heç bir siyasi dəstəkləri yoxdur. Ümumiyyətlə, Azərbaycan dövlətini əldə etdiyi uğurlara kölgə salmaq istəyən həmin qüvvələrin nə istəmələrindən və nə etmələrindən asılı olmayaraq, heç vaxt onların bu məkrli planları baş tutmayacaq.

### Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov:

- Bu insanların həmişə müxalifətin dağıdıcı qanadı ilə əlaqələri fəal olub və daim də bir-birilərini müdafiə ediblər . Son günlər isə müşahidə edilən fəallığın arxasında konkret olaraq bunların pul qazanmaq maraqları durur. Bu insanları xalq arasında heç bir nüfuzu yoxdur və bu gün istənilən gənc nəslin nümayəndəsindən bu insaların adını soruşsanız belə tanıyan olmayacaqdır. Bunu özləri də yaxşı bilir. Sadəcə, bu insanlar Qərbdəki maliyyə resurslarından və anti-Azərbaycan qurumlarından pul qoparmaq naminə fəallıqlarını artırırlar ki, bu da görüntüdən başqa bir şey deyil. Eyni zamanda, bura bəzi QHT-nin cəlb olunmasının digər bir səbəbi də onların vasitəsilə müxalifətin dağıdıcı qoluna maliyyə ötürülməsi məqsədidir. Çünki radikal müxalif siyasi qurumlar birbaşa xaricdən maliyyə dəstəyi ala bilmədiklərinə görə, ətraflarındakı adamların adlarına olan QHT-dən maliyyə resursları əldə etmək üçün istifadə edirlər. Leyla Yunusun da bu gün Qərbə qaçması və anti-Azərbaycan qurumlarla əlaqələrindən istifadə edərək, onun vasitəsilə həmin qurumlardan maliyyə vəsaiti əldə etmək üçün bu QHT-lərdən istifadə olunur. Yəni məqsəd tam aydındır: xarici maliyyədən istifadə və yararlanmaq.

**GÜLYANƏ**

# Unutqanlıq müxalifətin həyat fəlsəfəsidir

## Satqınlıq və xəyanət radikalların alın yazısına çevrilib

***AXC-Müsavat hakimiyyəti dövründə xalqın sərvətini talamış Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli, Arif Hacılı və digərləri 24 il sonra yenidən xalqın qarşısına çıxaraq, yalan danışması və absurd iddialar irəli sürməsi faktı isə, siyasi riyakarlıqdan başqa bir şey deyil, xarici qərəzli dairələrin siyasi sifarişlərini yerinə yetirməklə, ayrılan qrantları heç kəslə paylaşmaq niyyətində deyillər. Çünki unutqanlıq müxalifətin həyat fəlsəfəsidir və satqınlıq, xəyanət artıq onların alın yazıdır.***

### Sosial şəbəkədə zombiləşmiş müxalifət

Son vaxtlar sosial şəbəkədə dağıdıcı müxalifətin yaratdığı zombiləşmiş qaragüruhçu dəstə başçılarından qeyri hər kəsi ittiham etməyə, adıçəkilən şəxsə azacıq tənqidi yanaşanı isə xəyanətdə suçlamağa vərdiş ediblər. Özlərini



ictimai rəyə demokratik düşərgənin əsas güc mərkəzi kimi sırımağa çalışan bu qaragüruhçu dəstə hər cür yalan danışmaqdan, iftira atmaqdan çəkinmir. Ən yaxın tariximizə nəzər saldığımız zaman ictimai-siyasi fəaliyyətə komsomolçu kimi başlayan Kərimov Əli Əmirhüseyn oğlunun gerçək siması ortaya çıxar. Bu ləkəli keçmişi təmizləmək, yaddaşdan silmək mümkünsüzdür. Bir də tarix unudulmur.

Bu gün xalq, eyni zamanda Ə.Kərimli, İ.Qəmbər, Leyla Yunus, Xədicə İsmayıl kimi xəyanətkarların dəfələrlə Azərbaycanın maraqlarına zidd olan sövdələşmələrə getdiyini, ermənilərlə gizli sazişlər bağladığını və s. çox görüb və bu gün də bu riyakarların Azərbaycanın maraqlarına zərbə vurması heç də yeni hal deyil.

1993-cü ilin may ayının 25-də Prezidentin İcra Aparatında o zamankı Prezident Əbülfəz Elçibəyin rəhbərliyi ilə keçirilən müşavirədə səslənən fikirləri, qarşılıqlı ittihamları bir daha xatırlıtmaq istərdim. Ə.Elçibəy deyir ki, "biz bir ildən çoxdur hakimiyyətdəyik. Təəssüf ki, dövlət quruculuğunu nəzərdə tutduğumuz kimi yerinə yetirə bilmirik".

O zaman dövlət katibi vəzifəsini tutmuş Ə.Kərimli öz dililə satqınlığı və riyakarlığı təsdiqlədi: "İqtisadi sahədə cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yollarla xaricə satılması, həmin vəsaitin xaricdə saxlanması və bir sözlə, dövlət əmlakının talan edilməsi adicə hala çevrilib. Biz bunu etiraf etməliyik. Ona görə də, bilavasitə bu dövlət əmlakının dağılmasında məsul şəxslər kimi özümüzü mənən iştirakçı saymalıyıq". Göründüyü kimi, satqınlığı, rüşvəti və cinayətkarlığı dövlət siyasətinə çevirmiş Ə.Kərimli, A.Hacılı İ.Qəmbər bu gün mediada populist çıxışlar etməklə, nəinki keçmişdə baş verənləri unutdurmağa çalışırlar, hətta yuxarıdakı faktlara görə özlərinə bəraət qazandırmağı da unutmurlar.

### Dağıdıcı düşərgə siyasi iflic vəziyyətində

Nə üçün dağıdıcı müxalifət sivil siyasi mübarizə yolunu deyil, destruktivlik və xəyanət metodunu seçib? Çünki ortada qrantlar faktoru var. Ümumiyyətlə, siyasi fəaliyyətini, bütünlüklə anti-Azərbaycan istiqaməti üzrə müəyyənləşdirmiş radikal müxalifət düşərgəsi bu gün artıq siyasi iflic durumundadır. Son bir neçə həftə ərzində dağıdıcı müxalifət düşərgəsinin nümayəndələrinin söylədiyi fikirlər, xarici qərəzli dairələrin mətbuat orqanlarına verdiyi müsahibələr və irəli sürdükləri absurd iddialar, bir daha bu cür arzuolunmaz mövzuya qayıtmağı və reallığı olduğu kimi, təsvir etməyi labüdləşdirir. Çünki dağıdıcı müxalifətdən olan əlilər, isalar və digərləri müəyyən dairələrin qrantlarını və yardımlarını almaq üçün bütün norma və dəyərləri unudaraq, ən son variantlara belə əl atırlar. Burada əsas sezilən hərəkətlərin isə xəyanət üzərində qurulması cəmiyyət tərəfindən birmənalı şəkildə qarşılanmır.

**Rəfiqə HÜSEYNOVA**

---

# İsa Qəmbərin cürəti çatarmı?

Sirr deyil ki, Müsavatın eks-başqanı İsa Qəmbərin, nəinki millət qarşısında, o cümlədən, müsavatçılar qarşısında da günahları böyükdür. Hətta o qədər böyükdür ki, indi Müsavat daxilində baş verən proseslərə nəzər saldıqca, həmin günahlar daha çox görünməyə başlayır. Ancaq məsələ ondadır ki, o, mövcud günahlarını hər zaman olduğu kimi boynuna almır. Məsələn, etiraf etmir ki, Arif Hacılını saxta seçkilər vasitəsilə Müsavata başqan gətirib. Etiraf etmir ki, bu gün partiyanın qurulmasında xidmətləri olmuş əsas adamlar onun səhv siyasəti nəticəsində, digər partiyalardadırlar, ya da öz partiyalarını qurublar, ya da ümumiyyətlə, siyasi səhnəni tərk ediblər. Etiraf etmir ki, o, bu gün də partiyaya kölgə başqanlığı edir. Etiraf etmir ki, "MSDM"i yaradarkən, bunu siyasi-ictimai maraqlar üçün deyil, şəxsi maraqları üçün təsis edib ki, növbəti seçkilərdə iştirak etsin. Etiraf etmir ki...



### Sabiq Müsavat başqanı kor-kor, gör-gör 2018-ci ildə prezidentliyə namizəd olacağını Arif Hacılı vasitəsi ilə bəyan etdirir...

Nə isə, keçək əsas məsələyə, o məsələyə ki, İ.Qəmbər Müsavatda baş verən qarşıdurmalar fonunda 2018- ci ildə prezidentliyə namizəd olacağını başda A.Hacılı olmaqla, ona-buna dedizdirir. Əslində, bu bilirsiniz mənə nəyi xatırladır? Hələ 2015-ci ilin parlament seçkiləri ərəfəsində prosesə qatılmaq üçün Müsavat partiyasından namizədliyini irəli sürərkən, bəyan etmişdi ki, Müsavat daxilində gedən proseslərə rəğmən bu mübarizə iqtidarla Müsavat arasında olan məsələdir (?!-R.). Fikir verin, Müsavat partiyası həmin ərəfələrdə dağılmağa, parçalanmağa, məhv olaraq deqradasiyaya uğramağa başlayırdı. İ.Qəmbər isə bütün günahları atırdı iqtidarın üzərinə ki, sən demə oradakı narazılar hakimiyyətə işləyirmiş (??!!-R.). Yəni o Müsavatda avtoritar rejimi qoruyub-saxlamaq üçün hətta ən aparıcı şəxslərin istefalarına göz yumur, səhvini boynuna almır, əsas günahlarını da atır hakimiyyətin üzərinə, sadəcə, siyasi həyasızlığın son həddi!

Demə, hakimiyyətə qarşı radikallıqları ilə seçilən sabiq müsavatçılar - Səxavət Əlisoy, Hikmət Hacızadə, Ələvsət Talışxanlı, Vurğun Əyyub, Qubad İbadoğlu və başqaları hələ o vaxtları narazılar qrupunda yer alarkən, hakimiyyətlə iş birliyi qururaq, Müsavatı parçalamaq yolunu tutublarmış (?!-R). Əslində bu cür çox gülməli və gülməli olduqca da özünü "lider" adlandıran birinin nə qədər acınacaqlı vəziyyətə düşməsinin bariz göstəricisidir. Halbuki İ.Qəmbər gedənləri ittiham edərkən, etiraf etməyə cürətlənməyib ki, reallıqda Müsavatın parçalanmasında əsas baiskar, məhz onun özüdür. Yəni partiyanı parçalayanlardan ən yekəsi, ən nəhəngi, ən böyüyü və ən zırpısı elə İ.Qəmbərin özüdür ki var!

Yaxşı olardı ki, özünü 2018-ci il prezident seçkilərinə hazırlamaqdansa, o, cürət tapıb, bircə dəfə öz günahlarını etiraf edəydi. Yox, buna cürəti çatmırsa, onda özü kimi anlamsız ifadələri ilə onsuz da bulandırdığı könülləri daha da bulandırmasın və siyasətdən üzüsulu ikən ayrılsın. Çünki nə siyasət, nə də üstün yerlərdə kürsü tutmaq, ümumiyyətlə, Qəmbərin girdiyi kol deyil. Amma cürəti çatarmı? Elə, məncə də, yox...

**RÖVŞƏN**

---

# Məqsədləri və amalları fərqli olan müxalifətin birliyi absurddur

***Son illər müxalifət daxilində qəribə bir tendensiya yaranıb. Belə ki, istər müxalifətin dağıdıcı, istərsə də konstruktiv cinahında atılan müxtəlif səpkili birliklər seçkilərdən sonra ya fəaliyyətlərini dayandırır, ya da kağız üzərində mövcud olurlar. İndiyə qədər çoxlu sayda müxalif blok və qurumlar yaradılıb, amma hazırda onların heç biri ya siyasi səhnədə deyillər, ya da "ölü qurumlar" sırasına daxil olublar.***

Köhnə siyasi adət-ənənələrindən əl çəkməyi bacarmayan müxalifətin uğur qazanmamasının səbəblərindən biri və birincisi, onların düşərgə daxilində lider olmaq istəkləridir. Müxalifətin geniş birliyinə nail olunmamasının digər səbəbi isə məqsədlərin və amalların tamamilə fərqli olmasındadır. Belə ki, müxalifətin bir hissəsi, xüsusilə, dağıdıcılar cinahı fikirləşir ki, situasiyanı gərginləşdirməklə nəyəsə nail olmaq və hakimiyyətə gəlmək mümkündür. Ancaq anlamırlar ki, bu, özünü tamamilə doğrultmayan vasitədir.

Başqa bir məqam isə, siyasi proseslərdə konstruktiv mövqeləri ilə seçilən düşərgə təmsilçiləri arasında da "liderlik" iddiaları baş qaldırır və bu, birliklərin təsis edilməsinə ciddi manelər törədir. İstənilən vəzifədə, eyni zamanda, partiya rəhbəri kimi qalmaq isə, avtoritarlıqdan başqa bir şey deyil.

### Sözçülük siyasətdə meydan sulayır

Politoloq Natiq Miri hesab edir ki, indiyə qədər yaradılan müxalifətin siyasi birlikləri yalnız görüntü yaratmaq məqsədi daşıyıb: "Ən böyük siyasi bloklarda təmsil olunan güclərin, yəni müxalifət liderlərinin iddiası bir-birilərinə güzəştə getməyə imkan verməyib. Məhz bu iddialardan irəli gələn uyğunsuzluq, müxalifət daxilində daha çox ana müxalifət olmaq uğrunda mübarizə, eyni zamanda, Qərbdən dəstəklənmək perspektivləri imkan verməyib ki, daxildə güclü birlik yaratmaq mümkün olsun. Nəticədə, bu, böyük uğursuzluqlara gətirib çıxarıb.

Politoloq onu da bildirib ki, müxalifət liderləri cəmiyyət yoxdur: "Hər bir addımın arxasında ciddi ideya və səmimiyyət olmalıdır. Çox təəssüf ki, müxaliflər arasında bunların heç biri yoxdur. Hazırda daha çox sözçülük siyasətdə meydan sulayır. Böyük boşluqlar var, müxalifət bu boşluqları boş-boş sözlərlə yamayır".

### Niyaməddin Orduxanlı: "Müxalifətin uğursuz siyasəti onların fiaskoya uğramasına səbəb olur "

BXCP sədr müavini Niyaməddin Orduxanlı sözügedən məsələyə münasibət bildirərkən vurğulayıb ki, müxalifət düşərgəsini təmsil edən qüvvələrin yaratdığı müxtəlif blok və qurumların dağılmasına və parçalanmasına səbəb onların hər hansı bir işin öhdəsindən gəlməmələridir: "Müxalifətin uğursuz siyasət aparması onların fiaskoya uğramalarına səbəb olur. Demək olar ki, müxalifət düşərgəsində yaranan acınacaqlı vəziyyətə görə, müxalifət qüvvələri bir-birilərini xəyanətdə və satqınlıqda ittiham edirlər. Bu da müxalifət qüvvələrinin bir-birini qəbul etməmələrindən xəbər verir".

N.Orduxanlının sözlərinə görə, aralarında yaranan gərginlik müxalifət düşərgəsində hər hansı bir irəliləyişə maneçilik törədir və heç bir blok və birlik onları birləşdirə bilməz. Çünki müxalif qüvvələr bir araya gəlməyi bacarmırlar. Həmçinin, bu dağıdıcı siyasətin heç bir perspektivi yoxdur. Ümumiyyətlə, Azərbaycan xalqı müxalifət düşərgəsini təmsil edən qüvvələr tərəfindən aparılan siyasəti dəstəkləmir".

**RƏFİQƏ**






*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Müstəqil Azərbaycanda mədəni inkişafın xüsusiyyətləri

Müstəqillik illərində Azərbaycan cəmiyyətində mədəni inkişaf spesifik cəhətlərilə fərqləndi:

1. Bir tərəfdən, milli mədəniyyət sovet və kommunist ideologiyasının təsirindən azad edildi;

2. Digər tərəfdən, mədəniyyət sahəsinin kommunikasiyalaşdırılması baş verdi ki, bu da mədəni inkişafda müəyyən çətinliklər yaratdı. Həm Azərbaycan xalqının intellektual inkişafı, onun dünya mədəniyyəti xəzinəsinə qoşulması prosesi gedir, həm də köhnə inzibati amiranə metodların qalıqlarının mövcudluğu müəyyən əngəllər yaradır. Kulturoloq-alim Fuad Məmmədov, məhz bu məqama toxunaraq yazır: "Demokratik mədəniyyətin təşəkkülü prosesi mədəniyyət sferasının amiranə inzibati-idarəetmə metodlarına hesablanmış və demokratik mədəniyyətin xüsusiyyətlərini nəzərə almayan köhnə sovet mədəniyyət-idarəetmə strukturlarının üstünlük təşkil etməsinə görə tormozlanır. Vəziyyət onunla mürəkkəbləşir ki, mədəniyyət siyasəti subyektiv xarakter daşıyır, çünki kulturologiyanın elmi-nəzəri bazasına əsaslanmır. Lakin istehsalat məkanında mədəniyyət siyasətinin qeyri-mərkəzləşdirilməsi mədəniyyət sferasının təşkili və idarə edilməsinin əsas subyekti, cəmiyyətin sosial- mədəni tərəqqisinin əlaqələndiricisi və konstitusiya qarantı kimi dövlətin rolu və məsuliyyətini azaltmır".

Possovet cəmiyyətlərin mədəniyyəti çoxkomponentli mədəni müxtəlifliyi özündə əks etdirir. Burada elitar, kütləvi, nənəvi, müasir, sosialist, demokratik, xalq və etnik mədəniyyət tipləri bir-birilə qovuşmuşdur. Azərbaycan dövləti bütün mədəni tipləri vahid milli mədəniyyət çərçivəsində tənzimləyir. Nəticədə, Azərbaycan mədəniyyəti harmonik milli-demokratik mədəniyyət dəyərləri kimi bərqərar olur, bütün xalqın və cəmiyyətin mənəv sərvətinə çevrilir. Ulu Öndər Heydər Əliyev mədəni irsdən bəhrələnməyin cəmiyyətdə birlik və həmrəylik yaratdığına diqqət yetirərək demişdir: "Bu, bizim həm mədəniyyətimizin, həm ədəbiyyatımızın, həm də, ümumiyyətlə tariximizin daha geniş təbliğ olunması üçün yeni bir şərait yaradacaqdır.

Bundan başqa, mədəni inkişaf Azərbaycanda hərtərəfli, mənəviyyatca zəngin, elmi biliyə, yüksək intellektual səviyyəyə malik, vətənpərvər və modern, kreativ insan şəxsiyyətinin formalaşdırılmasına təsir edən əsas amildir: "Bu qanunlar Azərbaycanda yeni mədəniyyət siyasətinin həyata keçirilməsini tələb edir ki, bu da sovet tipli avtoritar mədəniyyətdən demokratiyanın siyasi sistem kimi təşəkkül tapması üçün etik-normativ əsas olan demokratik mədəniyyətə keçidi təmin edir. Mədəniyyətin demokratiya prinsip və dəyərlərinə əsaslanan yeni sosial tipini formalaşdıraraq, bu cür siyasət insanın daxilən dəyişilməsi, sosial inkişaf, dövlət quruculuğu və beynəlxalq münasibətlərin mühüm problemlərinin həllini təmin edəcəkdir. İntellektual inkişaf, azadlıq və etik tərbiyə prioritetlərinə yönəldilmiş demokratik mədəniyyət siyasəti Azərbaycan mədəniyyətinin sosial dinamikasında köklü dəyişikliklərə kömək etməyə, Azərbaycan xalqının yaradıcı potensialının və onun insan, cəmiyyət və dövlətin inkişafı baxımından istifadə edilməsi imkanlarını ölçülməz dərəcədə yüksəltməyə xidmət etməlidir".

Azərbaycanda mədəni inkişaf milli-mədəni vəhdəti də formalaşdırır.

Ümummilli Lider Heydər Əliyevin göstərdiyi kimi, vətənpərvərlik yalnız cəbhədə silah götürüb vuruşmaq deyil. Əgər hər bir vətəndaş öz üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirsə, elə bu da bir vətənpərvərlikdir. Vətənpərvərlik akademik bir məsələ kimi öz tədqiqini, ideoloji- siyasi bir problem kimi isə, öz təbliğini və adamlara aşılanmasını, onların düşüncə tərzinə çevrilməsini tələb edir. Bu baxımdan, Azərbaycan yazıçılarının və şairlərinin, xüsusən, maarifçilərin vətənpərvərlik mövzusunda qoyub getdikləri zəngin irs bu sahəyə çox lazımdır. Onlar daim təbliğ olunub öyrənilməlidir.

Vətənin bütün maddi və mənəvi nemətlərindən gen-boluna istifadə edə bildiyimiz kimi, onun rifahı naminə də çalışmağı bacarmalıyıq.

Dünya təcrübəsindən istifadə etməklə, Azərbaycan öz millimədəni inkişaf səviyyəsini yüksəltməlidir. Lakin dünya təcrübəsindən kor-koranə istifadə etmək, milli xüsusiyyətləri nəzərə almamaq ciddi fəsadlara gətirib çıxara bilər.

Professor Ə.Tağıyev yazır: "Qərb öz mədəni dəyərlərini yenicə müstəqillik qazanmış ölkələrə zorla sırımaq istəyir. Onlar bu zaman heç bir yerli amili nəzərə almır, açıq-saçıqlığı və əxlaqsızlığı müxtəlif vasitələrlə Şərq xalqlarına aşılamağa çalışırdı. Qərbin mədəni ekspansiyasını öz zamanında anlayan M.Ə.Sabir buna aludəçiliyi, buna meyilli olanları kəskin tənqid edir, islamın əxlaqla bağlı şəriət ehkamlarının qorunmasına çalışır, qadınlarımızı və oğlanlarımızı aludəliyi ilə özünə cəlb edən Qərb ekspansivliyinə uymamağa çağırırdı.

Avropa ölkələri mədəni inkişafı vətəndaş cəmiyyəti quruculuğu ilə əlaqələndirir, plüralist demokratiyanı mədəni eyniləşdirmə ilə qovuşdururlar. F.Məmmədov yazır: "Ölkənin mədəniyyət siyasətinin əsas vəzifəsi perspektivliliyi elmi cəhətdən əsaslandırılmış proqramlar əsasında "mənəvi istehsal" sferasının idarə edilməsinin səmərəliliyini artırmaqdır. Bu zaman nəzərə almaq lazımdır ki, vətəndaş cəmiyyətində təkcə dövlət deyil, habelə, beynəlxalq normalara müvafiq olaraq cəmiyyətin təşkil və idarə edilməsi məsələlərində milli hökumətlərlə əməkdaş kimi çıxış edən qeyri-hökumət təşkilatları ilə təmsil olunan cəmiyyət də mədəniyyət siyasətinin subyektidir.

Demokratik quruculuq yoluna qədəm qoymuş ölkənin alim və siyasətçiləri müasir Azərbaycan mədəniyyətinə onun tarixi və müasir durumunun sistemli təhlili əsasında obyektiv qiymət verməlidirlər. Onlar dünya sivilizasiyası kontekstində milli mədəniyyəti tənqidi- kulturoloji təhlil etməli və cəmiyyətin mədəniyyətinin dünya mədəniyyətinin inkişaf qanunlarına və dövlətin üçüncü minillikdə, milli tələbatlarına müvafiq olaraq, gələcək inkişafının əsasını təşkil edəcək mütərəqqi ənənələr və perspektiv meyilləri seçməlidirlər".

Azərbaycan özünün milli-mədəni inkişafında milliliyini qoruyub-saxlamalıdır. Bu, Ulu Öndər Heydər Əliyevin milli mədəniyyətə aid metodoloji baxışlarının əsasında durur: "Biz indi böyük məmnuniyyətlə qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində - Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıbdır. Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər.

İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub-saxlasın, öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsun".

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

səs

Son səhifə 9 sentyabr

## Gözünü ovucunun içində saxla...



Görmə qabiliyyətinin yaxşılaşdırılması üçün amerikalı oftalmoloq Uilyam Beytsin 100 il əvvəl təklif etdiyi metod bu gün də öz cəlbediciliyini itirməyib. AZƏRTAC Rusiyanın "Arqumentı i faktı" həftəliyinə istinadən xəbər verir ki, həmin metod bütün göz problemlərinin stress və gərginlikdən qaynaqlandığını əsas götürərək eynəkdən istifadə etmədən gözə istirahət verməklə yaxıngörmə (miopiya), uzaqgörmə (hipermetropiya) və astiqmatizm kimi xəstəliklərdən xilas olmağı nəzərdə tutur.

U.Beytsin fikrincə, gözə istirahət verməyin ən yaxşı yolu göz bəbəyinə işıq düşməsinin qarşısını almaqdır. Bunun üçün palminq (ingiliscə "palm" - "ovuc" sözündəndir) adlanan xüsusi təmrin də işlənib hazırlanıb. Təmrin zamanı masanın qarşısında əyləşib ona dirsəklənərək yumulmuş gözləri ovucla, üzərinə basmadan bağlamaq lazımdır. Elə bir şərait yaradılmalıdır ki, diqqəti yayındıran heç nə olmasın: nə parlaq işıq, nə səs-küy, nə də fikir dağınıqlığı... Beş dəqiqə həmin vəziyyətdə qalaraq fikrən yüzə qədər saymaq, müxtəlif rənglərin palitrasını, ya da hər hansı əşyanın, məsələn, bir çiçəyin bütün təfərrüatını, yaxud da böcəyin onun üzərində necə gəzdiyini göz önünə gətirmək olar.

Elmi dəyəri müasir oftalmologiyada qəbul edilməyən, görməni əhəmiyyətli dərəcədə yaxşılaşdırması barədə təsdiqlənmiş elmi məlumatlar olmayan metodun, hər halda, faydası vardır. Ən azı, kompüter arxasında işləyərkən göz yorğunluğunun aradan qaldırılması üçün həmin təmrini icra etmək xeyirlidir. Palminq, həmçinin yuxuqabağı psixi gərginliyi də aradan qaldıra bilir.

## Bionik linzalar ideal görməni təmin edəcək

Kanadanın "Ocumetics Technology Corporation" şirkəti eynəyi və kontakt linzaları əvəz edə biləcək "Bionic Lens" qurğusunun kliniki sınaqlarını keçirir. Bionik linzanı artıq sifariş etmək mümkündür.

AZƏRTAC hi-news.ru saytına istinadla xəbər verir ki, "Bionic Lens" bir növ göz büllurunu əvəz edən implantdır. Bu implantın "quraşdırılması" praktik olaraq süni göz büllurunun quraşdırılması əməliyyatından fərqlənmir. İmplantasiyadan sonra linza görmənin torlu qişanın zədələnməsi ilə bağlı olmayan istənilən kənaraçıxmalara düzəliş edir. Beləliklə, "Bionic Lens" gözün içinə quraşdırılan "dinamik" linza ilə oxşarlıq təşkil edir. Bu, "Bionic Lens"in müxtəlif məsafələrə fokuslamağa imkan verən siliar əzələ ilə birləşməsi nəticəsində mümkün olur. İstehsalçılar bildirirlər ki, fokuslamanın diapazonu adi göz büllurundan daha genişdir. Bionik linzanın işinə 100 dəfə az enerji sərf edilir ki, bu da linzanı idarə edən əzələni yormur. "Bionic Lens"dən istifadə edərək görməni 30 metrə qədər məsafədə olan kiçik predmetlərə (məsələn, avtomobilin nömrəsi) fokuslamaq olar. İstehsalçıların sözlərinə görə, insanlar barmaqlarına baxdıqda barmaq izlərini formalaşdıran ən xırda naxışları belə ayırd edə biləcək. Gələcəkdə implantı modifikasiya etmək (məsələn, təsviri xarici qurğunun ekranına çıxarmaq) mümkün olacaq. Qurğunun qiyməti 3200 dollardır.

## İnsanın daxilini göstərən kamera kəşf edilib

İnsanın daxilini göstərən kamera kəşf edilib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Edinburq Universitetinin professorları bu cihazın xəstələrin daxili orqanlarını yoxlamaq üçün əlverişli olduğunu bildiriblər. Vücudun müxtəlif hissələrinə ötürülə bilən texnologiya fərqli şəkildə istifadə edilir. Bu kameranın gələcəkdə həkimlər üçün mühüm avadanlığa çevriləcəyi bildirilib.

## Güləşçimiz Şahanə Nəzərova dünya çempionu olub



Yunanıstanın paytaxtı Afinada yeniyetmə güləşçilərin dünya çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, dünya çempionatında 38 kiloqram çəki dərəcəsində mübarizə aparan Şahanə Nəzərova ilk görüşdə Yaponiya təmsilçisini 84, yarımfinalda isə Rusiya idmançısını 65 saniyədə tam üstünlüklə məğlub edərək finala yüksəlib. Final görüşündə güləşçimiz Ukrayna təmsilçisinə də vaxtından əvvəl, cəmi 82 saniyəyə tam üstünlüklə qalib gəlib və dünya çempionatının qızıl medalına yiyələnib. Qeyd edək ki, Şahanə Nəzərova bir ay bundan əvvəl yeniyetmələrin Avropa çempionu adını qazanıb.

## "Qarabağ"-"Roma" matçına 3 min bilet satılıb

Sentyabrın 7-si saat 17:00-dan etibarən Ağdamın "Qarabağ" futbol klubunun Çempionlar Liqasının qrup mərhələsinin ilk ev oyununda qarşılaşacağı "Roma" ilə matçın biletləri satışa çıxarılıb. AZƏRTAC "Qarabağ" klubuna istinadla xəbər verir ki, ilk gündə təxminən 3 min bilet satılıb. Azarkeşlər biletləri satış məntəqələrindən və onlayn olaraq - iTicket.az saytından əldə edə bilərlər. Biletləri əldə edərkən şəxsiyyət vəsiqəsi təqdim olunmalıdır. Qeyd edək ki, "Qarabağ" - "Roma" matçı sentyabrın 27-si saat 20:00-da start götürəcək.

## Basketbol üzrə 40-cı Avropa çempionatının səkkizdəbir finalçıları müəyyənləşib




Dörd ölkənin - Finlandiya, İsrail, Rumıniya və Türkiyənin ev sahibliyi ilə keçirilən basketbol üzrə 40-cı Avropa çempionatının qrup mərhələsinə yekun vurulub. Hər birində altı komandanın yer aldığı dörd qrupda ilk dörd yeri tutan komandalar səkkizdəbir finala yüksəliblər. AZƏRTAC xəbər verir ki, "A" qrupundan səkkizdəbir finala bütün görüşləri qələbə ilə başa vuran Sloveniya, eləcə də Finlandiya, Fransa və Yunanıstan yığma komandaları vəsiqə qazanıblar. Polşa və İslandiya isə qrupdan çıxa bilməyiblər.

"B" qrupunda Litva, Almaniya, İtaliya və Ukrayna yığmaları növbəti mərhələyə yüksəldikləri halda, Gürcüstan və İsrail komandaları qrupda qalıblar. "C" qrupunda yüz faizli nəticə göstərən İspaniya seçməsi qrupu birinci sırada tamamlayıb. Bu qrupdan səkkizdəbir finalın digər iştirakçıları Xorvatiya, Monteneqro və Macarıstan milliləri olublar. Çexiya və Rumıniya isə qrup səddini keçməyi bacarmayıblar. Qardaş Türkiyə millisi yer aldığı "D" qrupunda sonuncu görüşdə güclü Latviya yığmasına 79:89 hesabı ilə məğlub olsa da, qrupu dördüncü sırada başa vuraraq səkkizdəbir finala yüksəlib. Bu qrupda ilk üç sırada isə Serbiya, Latviya və Rusiya milliləri qərarlaşıblar. Belçika və Böyük Britaniya yığma komandaları qrupda qalıblar. Avropa çempionatının səkkizdəbir final mərhələsinin görüşləri sentyabrın 9-da və 10-da keçiriləcək. Sentyabrın 9-da Sloveniya-Ukrayna, Almaniya-Fransa, Finlandiya-İtaliya, Litva-Yunanıstan görüşləri oynanılacaq. Bir gün sonra isə Latviya-Monteneqro, Serbiya-Macarıstan, İspaniya-Türkiyə, Xorvatiya-Rusiya oyunları təşkil olunacaq. Çempionatın dörddəbir final mərhələsinin görüşləri sentyabrın 12-13-də, yarımfinallar ayın 14-15-də oynanılacaq. Üçüncü yer uğrunda görüş və final qarşılaşmaları isə sentyabrın 17-də oynanılacaq.

## "Fənərbağça" "Tottenhem"in futbolçusunu transfer edib



Türkiyənin "Fənərbağça" komandası İngiltərənin "Tottenhem" klubunun futbolçusu Vinsent Yansseni heyətinə cəlb edib. İstanbul klubunun rəsmi saytında yer alan xəbərə görə, iyirmi üç yaşlı hollandiyalı hücumçunun özü və komandası ilə artıq razılıq əldə olunub. Klublar arasındakı razılığa əsasən, futbolçu icarə əsasında Türkiyə komandasında çıxış edəcək. Onun bu gün İstanbula gələcəyi və rəsmi müqavilə imzalanacağı gözlənilir.

Qeyd edək ki, peşəkar karyerasına 2013-cü ildə Hollandiyanın "Almere siti" komandasında başlayan təcrübəli futbolçu sonralar bu ölkənin "Alkmar" kollektivinin heyətində çıxış edib. 2016-cı ildə Hollandiya klubundan 22 milyon avro müqabilində İngiltərənin "Tottenhem" komandasına keçən mərkəz hücumçusu bu klubun heyətində 27 oyunda forma geyinib və iki qol ilə yadda qalıb. V.Yanssen Hollandiya yığma komandasının heyətində 15 qarşılaşmada meydana çıxıb və yeddi qol vurub.

### ELAN

Kərimov Osman Kərim oğluna məxsus Şüvələn qəsəbəsinin M.S.Ordubadi küçəsində yerləşən və Bağlar İdarəsi tərəfindən verilən 71 saylı bağ evinin sənədləri itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**